Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8 NOYABR 2019-cu il

№ 199 (4097)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# MNATSAKANYAN LONDONDAN SONRA İKİNCİ ZƏRBƏNİ İSVEÇ UNİVERSİTETİNDƏ ALDI - NAZİR AZƏRBAYCANI İŞĞALÇI KİMİ TƏQDİM EDƏ BİLMƏDİ...

səh. 7

Azərbaycan diplomatiyası Ermənistanı ABŞ və Rusiyanın gözündən tam saldı

səh. 9

"Freedom House"un "Azərbaycan düşmənçiliyinə" son qoymaq üsulu - gündəmdə ideya var...

səh. 3

Qondarma "DQR" "ombudsmanı" Vyanada - Avropa Ombudsmanlar Birliyindən Azərbaycana düşmənçilik...

səh. 3

"Real" hay-küylə hərəkatdan partiyaya çevrildi, çox asanlıqla da dağılıb getdi - Səbəb...

səh. 6

Demokratiya beşiyi sayılan Fransada müsəlmanların təzyiq altında yaşadıqları rəy sorğusu ilə təsdiqləndi...

səh. 10

Dünya Bankı kredit əlçatanlığına görə Azərbaycanı ilk yerə qoydu - real sektora kredit verməyən banklara yeni işarə...

səh. 13

"Nə alsanız 1 manata" - Mağazada 1 manata heç nə yoxdur... İstehlakçı hüquqlarına yeni qəsd...

səh. 15



səh. 5

## Qondarma «DQR»in özünün kağız pulları - suveren Azərbaycana qarşı cinayətdə Avropa Mərkəzi Bankının da adı keçir...



Vaxtından əvvəl Milli Məclis seçkilərini zəruri edən iki faktor(?) - sosial-iqtisadi islahatlar və icra kadrlarının sürətli dəyişdirilməsi...

səh. 4



42 Çin yük vaqonu Azərbaycan üzərindən Avropaya çatdı - ildə azı 21 trilyon dollarlıq yükün qazancına sahib olacağıq...

səh. 11

Danimarka krallığının rus kəmərinə maneçilik qərarı Azərbaycan qazını «hava-su» vacibliyinə yüksəltdi

səh. 8

səh. 4

Əli İnsanovda İsa Qəmbəri və Əli Kərimlini cəlb edən uğursuz faktor - "Qərbi azərbaycanlılar İnsanovun sözü ilə oturub-durmaz"...



səh. 10

Ermənipərəst Zatulindən Azərbaycan-Rusiya dostluğuna yeni təxribat - Rusiya Qəbələ RLS-in müddətinin uzadılmasını rəsmən xahiş etməyib...



səh. 13

Azərbaycanın dəniz limanları dünyada birinci oldu - yüksək reytinqin əsasları...



səh. 14

Universitetlərdə kafedraların sayca azaldılmasının səbəbləri və mümkün nəticələr...



səh. 15

Ziyanlı sayılan Çin şprislərini Bakı apteklərindən necə yox etməli...



# Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası çərçivəsində hazırlanmış ikinci qanunvericilik paketi Milli Məclisdə müzakirəyə çıxarıldı

**Məhkəmə-hüquq islahatları çərçivəsində Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş ikinci qanun layihələri paketi müzakirəyə çıxarılıb.**



Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi çərçivəsində ilk qanunvericilik aktları paketi bu ilin iyul ayında qəbul edilib və islahatların institusional komponentini əhatə edib. 2020-ci ilin yanvarın 1-dən qüvvəyə minəcək həmin dəyişikliklərə əsasən, ixtisaslaşmış məhkəmələrin iki sisteminin - inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməli qoyulub.

Hazırki sənədlər toplusuna daxil olan layihələr 12 normativ-hüquqi akta, o cümlədən, Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual, İnzibati Xətalar məcəllələrinə, "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında", "Dövlət məhkəmə ekspertizası haqqında", "İnzibati icraat haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlara dəyişikliklərin edilməsini nəzərdə tutur. Qeyd edilən layihələrin hazırlanması ilə əlaqədar Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndələrindən ibarət işçi qrupları yaradılıb, statistik məlumatlar və mövcud təcrübə təhlil edilib, qabaqcıl beynəlxalq təcrübə öyrənilib. Həmçinin, hüquq ictimaiyyətinin, akademik dairələrin, sahibkarların iştirakı ilə geniş ictimai dinləmələr keçirilib, Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycanda Amerika Ticarət Palatasının, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təklifləri və rəyləri toplanıb.

Müzakirəyə çıxarılan layihələr vahid məhkəmə təcrübəsinin formalaşdırılması və məhkəmə ekspertizasının keçirilməsi ilə əlaqədar fəaliyyətin təkmilləşdirilməsi kimi iki əsas istiqaməti əhatə edir.

"Məhkəmələr və hakimlər haqqında" qanuna edilən dəyişikliyə əsasən, vahid məhkəmə təcrübəsi yaradılmasının məqsədi ədalət mühakiməsi həyata keçirilərkən məhkəmələr tərəfindən hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etməkdir.

Layihəyə əsasən, Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini həm baxdığı ayrı-ayrı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, həm də Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırmalıdır. Ali Məhkəmə izahların dövrün tələblərinə uyğunluğunu təmin etmək məqsədilə onları daim yeniləməlidir.

Qanun layihələrinə əsasən, məhkəmələrin fəaliyyətində aşkar edilən nöqsanların aradan qaldırılması üçün Ali Məhkəmə tərəfindən monitorinqlərin təşkil edilməsi nəzərdə tutulur. Monitorinqin nəticələri hakimlərin fəaliyyətinin Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndirilməsi zamanı nəzərə alınacaq.

Qanun layihələri paketinə daxil olan ikinci mühüm istiqamət məhkəmə prosesi iştirakçılarının məhkəmə ekspertizasının aparılması ilə bağlı hüquqlarının genişləndirilməsidir. Təklif edilən dəyişikliklərə əsasən, yeni bir hüquqi institut - özəl məhkəmə ekspertizası institutu yaradılır, özəl məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olmaq üçün irəli sürülən tələblər müəyyən edilir.

Layihəyə əsasən, mülki işlər, inzibati mübahisələr və inzibati xətalara dair işlər üzrə məhkəmə prosesinin iştirakçıları məhkəmə ekspertizası fəaliyyətini həyata keçirən dövlət orqanlarına və ya özəl məhkəmə ekspertlərinə öz təşəbbüsü ilə və öz hesabına ekspertizanın aparılmasını sifariş edə və həmin ekspertizanın nəticələrini məhkəməyə təqdim edə biləcək.

Hazırda məhkəmə-hüquq islahatları çərçivəsində növbəti normativ-hüquqi aktlar toplusu üzərində iş davam edir. Bu sənədlər toplusuna cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq differensasiya edilməsi, mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlili və təkmilləşdirilməsi, məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması ilə bağlı qanunvericilik aktlarının layihələri daxildir.

Bununla yanaşı, Məhkəmə-Hüquq Şurasından verilən məlumata əsasən, 2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq yeni inzibati və kommersiya məhkəmələrinin, habelə Ali Məhkəmənin və apelyasiya instansiyası məhkəmələrinin yeni məhkəmə kollegiyaları üçün hakim korpusunun formalaşdırılması işi davam etdirilir.

# Almaniyada ermənilərin Qarabağla bağlı növbəti təxribatının qarşısı alındı

**Xarici İşlər Nazirliyi (XİN) qondarma Dağlıq Qarabağ rejiminə həsr olunan suvenir avro əskinaslarla bağlı məlumat yayıb.**



XİN mətbuatda Almaniyanın "EuroSchein-Souvenir GmbH" şirkətinə məxsus internet səhifəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki qondarma rejimə həsr olunan suvenir avro əskinaslarının buraxılması ilə bağlı yayılan məlumata münasibət bildirib. XİN-in Mətbuat xidməti idarəsindən baki-xeber.com-a verilən məlumata görə, məsələ ilə əlaqədar Azərbaycanın Almaniyadakı səfirliyi dərhal sözügedən şirkətin icraçı direktoru ilə əlaqə saxlayıb və ona etiraz məktubu ünvanlayıb. Məlumatda qeyd olunub: "Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında işğalçı Ermənistan tərəfindən yaradılmış qondarma rejim və bu ərazilərdəki qanunsuz fəaliyyət barədə qarşı tərəfə ətraflı məlumat verilib. Şirkətdən qanunsuz rejimin təşviqinə xidmət edən addımlardan çəkinmək tələb olunub. Müqabil tərəf müraciətimizə dərhal reaksiya verərək, yazılı cavab məktublarında buraxdıqları səhvə və səbəb olduqları narahatlığa görə üzr istəyib, müvafiq suvenir əskinasların dizaynının onlar tərəfindən deyil, lisenziya əsasında fəaliyyət göstərən digər şirkət tərəfindən tərtib olunduğunu bildiriblər. Buna baxmayaraq, müraciətimizdən sonra məsələnin aidiyyəti üzrə müzakirə edildiyi qeyd olunub və müvafiq suvenirlərin istehsal edilməməsi və bu barədə məlumatın ("link"in) internet səhifəsindən silinəcəyi vəd olunub. Qeyd etmək istərdik ki, sözügedən məlumat artıq alman şirkətinin internet səhifəsindən silinib".

# Vilayət Eyvazov Azərbaycan və İran DİN-ləri arasında əməkdaşlığın yeni istiqamət və imkanlarının zəruriliyini qeyd etdi

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 7-də İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadəni qəbul edib.**



DİN-n Mətbuat xidmətindən "Bakı Xəbər"ə verilən məlumata görə, qonağı salamlayan nazir iki qonşu və dost dövlət arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu, əsrlər boyu bərabər yaşayan xalqlarımızı elmi, mənəvi, mədəni tellər birləşdirdiyini, bu gün ikitərəfli əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini, Azərbaycan və İran prezidentləri arasındakı səmimi dostluğun və qarşılıqlı səfərlərin hərtərəfli əməkdaşlığa böyük töhfə verdiyini məmnunluqla xatırladıb. General-polkovnik Vilayət Eyvazov iki ölkənin Daxili İşlər nazirlikləri arasında mövcud olan əlaqələrə toxunaraq nazirlər, o cümlədən digər rəhbər vəzifəli şəxslərin başçılıq etdiyi heyətlər səviyyəsində səfərlərin, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin nəinki DİN-lər, həmçinin digər hüquq-mühafizə orqanları arasında sıx əlaqələrin mövcudluğundan xəbər verdiyini bildirib.

Qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə və qaçaqmalçılığına qarşı mübarizənin vəziyyətinə toxunan cənab Vilayət Eyvazov əməkdaşlığın böyük imkanlara malik olduğunu, bu sahədə məlumat və təcrübə mübadiləsinin, yeni istiqamətlərin müəyyənləşdirilməsinin və birgə səylərin zəruriliyini qeyd edib. Görüşdə cinayətkarlıqla mübarizə sahəsində nazirliklərimizin potensialının geniş olduğu, ikitərəfli əlaqələrin daha da inkişafının xalqlarımızın rifahı naminə regionda sülh və sabitlik işinə xidmət edəcəyi fikri ifadə olunub.

Səfir Cavad Cahangirzadə səmimi qəbula görə nazirə təşəkkür edib, dövlətlərimizin müvafiq strukturları arasında əlaqələrin daha da dərinləşdirilməsindən məmnunluğunu, bu yöndə səylərini əsirgəməyəcəyini vurğulayıb.

# Yevlaxın yeni icra başçısı 500 sakini ayaq üstə dinlədi

**Prezident İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq ölkə başçısının müvafiq sərəncamı ilə Yevlax Rayon İcra Hakimiyyətinə başçı təyin olunmuş Anar Tağıyev Yevlax şəhərində sakinlərlə ilk görüşünü keçirib.**

"Trend"in məlumatına görə, sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə şəhərin Heydər Əliyev Mərkəzində təşkil olunan görüşdə ümumilikdə 500 nəfərdən çox insan toplaşıb.

Ənənəvi formatdan kənar keçirilən görüşdə çıxış edən Yevlax Rayon İcra Hakimiyyətinin başçısı A.Tağıyev bildirib ki, ölkə başçısı tərəfindən ona böyük etimad göstərilərək Yevlax Rayon İcra Hakimiyyətinə başçı təyin edilib. Prezidentin qəbulunda olduğu zaman tapşırılan vəzifələrlə yanaşı ilk növbədə rayon sakinlərinin müraciət və problemlərinə həssaslıqla yanaşmağı tapşırıb.

A.Tağıyev qeyd edib ki, son illərdə Prezidentin həyata keçirdiyi siyasət nəticəsində pespublikanın bütün guşələrində olduğu kimi Yevlax rayonunda da böyük işlər görülüb. Lakin bir sıra problemlər qalmaqdadır və onların aradan qaldırılması üçün əlindən gələni edəcəyinə, ona göstərilən etimadı doğruldacağına söz verib.

"Açıq mikrofon" formatında, maraqlı dialoq şəklində 4 saatdan çox müddətdə və sakinlərin böyük fəallığı ilə keçən, 80-ə yaxın sakin çıxış etdiyi görüşdə vətəndaşların bütün sahələri əhatə edən təklif və müraciətləri nəzarətə götürülərək icrası ilə bağlı müvafiq qurum və vəzifəli şəxslərə tapşırıqlar verilib. Bütün çıxışlarda sakinlər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursa birmənalı dəstək ifadə ediblər.

**"Freedom House" hüquq müdafiə təşkilatı hər zaman Azərbaycana münasibətdə qərəzli mövqedən çıxış edib. Elə bir hesabatları olmayıb ki, orada Azərbaycanla bağlı obyektiv mövqe tutsunlar. Mütləq şəkildə qərəzli yanaşma özünü göstərib.**

# "Freedom House"un "Azərbaycan düşmənçiliyinə" son qoymaq üsulu - gündəmdə ideya var...

### *Əliməmməd Nuriyev: "Belə bir görüşün keçirilməsi çox faydalı nəticələr verə bilər"*




Məlum olduğu kimi, adıçəkilən təşkilat dünya ölkələrində internet azadlığı ilə bağlı növbəti illik reytinqini dərc edib və ölkəmizi 65 ölkə arasında 48-ci çıxarıb. Bu təşkilatın Azərbaycana qarşı qərəzini hər kəs bilir. Onu da yaxşı bilirik ki, ümumən, qurumun hesabatları siyasi xarakter daşıyır. Gürcüstan və Ermənistan təşkilatın reytinqində müvafiq olaraq 10 və 13-cü yerlərdə qərarlaşıb. Təşkilat illərdir "ənənəsinə" sadiqlik nümayiş etdirir. Sən demə, Ermənistan internet azadlığına görə dünya liderlərindəndir və bu səbəbdən dünyada 13-cü yerdədir. Hansı ki, müqayisəli yanaşsaq, fərq bizdən hesabatda əksini tapdığı qədər yaxşı ola bilməz. Ona görə ki, bu mümkün deyil.

O da məlumdur ki, Azərbaycanda çoxsaylı qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bir sıra QHT ötən illər ərzində xeyli peşəkarlaşıb, geniş beynəlxalq əlaqələrə malikdir, bir sözlə, işini yaxşı bilir. Bu baxımdan ölkədəki QHT-lərlə "Freedom House" təşkilatının rəhbərliyi arasında birbaşa dialoq təşkil olunmalıdır. Gəlib vəziyyətlə yerindəcə tanış olsunlar, bir sıra məsələlərə aydınlıq gətirilsin və hesabatlarda əksini tapan yanlış dəyərləndirmələrə son qoyulsun. Bütün bunların fonunda, ekspertlər belə bir dialoqun keçirilməsinə necə baxırlar?

Məsələyə münasibət bildirən Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyevin sözlərinə görə, belə bir görüşün keçirilməsi çox faydalı nəticələr verə bilər: "İnformasiyanın birinci əldən ötürülməsi çox vacib məsələdir. Çox təəssüflər olsun ki, Azərbaycan QHT-ləri bəzi hallarda beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmirlər. Düzdür, bəzi beynəlxalq QHT-lər var ki, onların aydın siyasi və digər maraqları var. Bundan çıxış edərək ilərdir Azərbaycana münasibətdə qeyri-obyektivliyə yol verirlər. Çünki bunların informasiya mənbələri qeyri-obyektivdir. "Freedom House" təşkilatına ötürülən məlumatların bir hissəsi Azərbaycandan gedir. Həmin informasiyaları da radikal müxalifət mövqeyindən çıxış edən şəxslər ötürürlər. Bununla belə, erməni lobbisi də çox fəal şəkildə işləyir. Onlar çalışırlar ki, insan hüquq və azadlıqları ilə bağlı daim Azərbaycanı qaralasınlar. Çox təəssüf ki, bu zaman Azərbaycandakı bəzi QHT-lərdən də bir alət kimi istifadə edilir. Ona görə də yaxşı olardı ki, Azərbaycandakı QHT-lərlə "Freedom House" arasında birbaşa əlaqə yaransın. Yaxşı olardı ki, bu qurumun rəhbərliyi ilə birbaşa normal görüşlər keçirək. Bunun nəticəsində birtərəfli informasiyanın getməsinin qarşısı alınacaq.

*"Belə təmaslar sayəsində Azərbaycanla bağlı qərəzli hesabatlar azalacaq"*

**Azərbaycanla bağlı qərəzli rəyin formalaşmasında birtərəfli informasiyaların rolu böyükdür. Belə olsa, sonrakı dövrdə onlayn əlaqə yaradılacaq. Hesab edirəm ki, belə təmaslar sayəsində Azərbaycanla bağlı qərəzli hesabatlar azalacaq. Təşkilat obyektiv informasiya əldə edəcək".**

***Vidadi ORDAHALLI***

**Dağlıq Qarabağdakı qondarma separatçı rejimin "ombudsmanı" - "hüquq müdafiəçisi" sayılan Artak Beqlaryan noyabrın 4-də Avstriyanın paytaxtı Vyanada səfərdə olub. Separatçı rejimin qanunsuz "ombudsmanı" Avropa Ombudsmanları İnstitutunun "Demokratiyanın və vətəndaş cəmiyyətinin gücləndirilməsində ombudsmanın rolu" mövzusunda keçirdiyi beynəlxalq konfransda iştirak edib.**

# Qondarma "DQR" "ombudsmanı" Vyanada - Avropa Ombudsmanlar Birliyindən Azərbaycana düşmənçilik...

### *Əli Orucov: "Bu, Avropa təsisatlarının riyakarlığından irəli gəlir"*



Maraqlıdır ki, sözügedən tədbirə postsovet məkanındakı separatçı qurumlardan yalnız Qarabağ separatçıları dəvət edilib. Konfransda "Artsax" "ombudsmanı" xüsusilə tanınmamış "dövlət"lərin beynəlxalq təcrid problemini qaldırıb. Bunun guya demokratik təsisatların güclənməsinə mənfi təsir etdiyini vurğulayıb. Beqlaryan tanınmış beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaların əksinə olaraq, beynəlxalq ictimaiyyətin insan hüquqlarının universallığı prinsipinə qarşı olduğunu diqqətə çatdırıb.

Bu məsələ ilə əlaqədar olaraq Avropa Ombudsmanları İnstitutunun baş katibi Cozef Sigel təşkilatın insan haqlarının məhdud olmadığına inandığını qeyd edib. Eləcə də inklüzivliyin insan hüquqlarının qorunmasına və demokratiyanın möhkəmlənməsinə kömək edəcəyinə ümidvar olduğunu bildirib.

Göründüyü kimi, Avropanın digər qurumları kimi, Avropa Ombudsmanları İnstitutu da Qarabağ məsələsinə, separatçı rejimə münasibətdə çoxüzlü mövqe tutur. Əvvəla separatçı qurum təmsilçisinin belə bir tədbirdə iştirakına şərait yaradılması beynəlxalq hüquqa, ölkənin ərazi bütövlüyünə hörmətsizlikdir. Digər tərəfdən, Avropa Ombudsmanları İnstitutu demokratiyaya belə önəm verirsə, o zaman postsovet məkanındakı digər separatçı qurum təmsilçiləri tədbirə niyə dəvət edilmir? Deməli, bütün bunlar məqsədyönlü şəkildə həyata keçirilən erməni təəssübkeşliyi siyasətindən irəli gəlir.

Məsələyə münasibət bildirən AMİP funksionери Əli Orucovun sözlərinə görə, bu, Avropa təsisatlarının riyakarlığından irəli gəlir: "Məsələ ondadır ki, digər separatçı qurumlara münasibətdə kəskin mövqe tuturlar, erməni separatçılarına gəldikdə isə fərqli mövqe sərgiləyirlər. O baxımdan Avropa Ombudsmanları İnstitutunun sərgilədiyi mövqe tamamilə beynəlxalq hüquq normalarına ziddir. Qondarma separatçı qurum Rusiya-Qərb qarşıdumması-nın şiddətlənməsindən istifadə edərək manipulyasiyalarını və saxtakarlıqlarını intensivləşdirir. Qərb dairələri yanlış olaraq düşünürlər ki, Ermənistana və separatçı rejimə dəstək verməklə Moskvanın təsirini azaldaraq tərəflərinə çəkə biləcəklər. Halbuki, işğalçı rejimin mövcudluğu məhz Rusiyadan asılıdır. Separatçıların belə konfransda iştirakı həm demokratiya adına, həm də ombudsman təsisatına utancdır. 1 milyondan çox insanın elementar hüquqlarına hörmət qoymayan, terroru və zorakılığı dövlət siyasətinə çevirən Ermənistan və onun yaratdığı oyuncaq separatçı rejimin bu cür tədbirə dəvət edilməsi qanunsuzluqdur. Fikrimcə, Azərbaycan tədbirin təşkilatçılarına dərhal öz etirazını kəskin şəkildə bildirməli, izahat tələb etməlidir.

*"Separatçıların belə konfransda iştirakı həm demokratiya adına, həm də ombudsman təsisatına utancdır"*

**Terrorçu rejim üçün insan hüquqlarından danışmaq yersizdir. Görünən odur ki, bəzi Avropa təsisatları bilərəkdən erməni separatçılarına qucaq açırlar. Digər separatçılara münasibətdə isə beynəlxalq hüquq normalarına uyğun davranırlar. Bu açıq-aşkar riyakarlıqdır".**

***Vidadi ORDAHALLI***

# Vaxtından əvvəl Milli Məclis seçkilərini zəruri edən iki faktor(?) - sosial-iqtisadi islahatlar və icra kadrlarının sürətli dəyişdirilməsi...

**İlham Əliyev hakimiyyətə gəldiyi dövrdən başlayaraq daim islahatların aparılmasında maraqlı olub. Biz bu addımları İlham Əliyevin rəhbərliyi altında hakimiyyətin yürütdüyü siyasi kursun təzahürlərində izləmişik. Bu ildən isə sosial və struktur islahatlara daha ciddi start verildi.**



## *Xəzər Teyyublu: "Bunun üçün vaxtın irəli çəkilməsi yox, parlamentə gedən yolu bir qədər asanlaşdırmaq lazımdır"*

Arxada qoyduğumuz aylar ərzində iki böyük sosial paket təqdim olundu ki, ondan da milyonlarla vətəndaş yararlandı. Bir neçə gün ərzində yaşananlar isə ölkənin daha dinamik şəkildə struktur və kadr islahatlarına qədəm qoyduğu mənzərəsini canlandırır. İlham Əliyev dövlətçilikdə mühüm xidmətləri olan və yaşları ilə bağlı onları tutduqları vəzifələrdən azad etməsi xahişilə ona müraciət edən məmurları qəbul edərkən bu təcrübəni dəstəklədiyini dedi. Eyni zamanda, digər məmurlara müraciət etdi ki, bundan örnək götürsünlər. Sonra biz ard-arda bir neçə belə istefanın şahidi olduq. Onların yerinə isə kifayət qədər gənc yaşda olan kadrlar təyin olundular.

Aparılan islahatların fonunda biz şahidi oluruq ki, əhali bununla bağlı gedən müzakirələrdə harda dəyişikliklərin zəruri olduğuna dair ünvanlar göstərir. Bu xüsusda Milli Məclisin də yenilənməyə ehtiyacı olan bir qurum kimi adı çəkilir. Fikirlər onunla əsaslandırılır ki, Milli Məclisdə də kifayət qədər yaşlı olan deputatlar var, onların yeniləri ilə əvəz olunması islahatlar prosesinə daha böyük töhfə verə bilər. Bunun üçün də növbədənkənar parlament seçkilərinin keçirilməsinin zəruriliyi qeyd olunur. Hesab olunur ki, parlamentin köhnə tərkibdə qalmasının islahat prosesinə mənfi təsiri ola bilər.

Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, gedən prosesləri yaxından izləyirlər: "Bilirsiniz, biz müxalif partiyayıq. Buna görə də görülən işlərə münasibətimiz bir qədər fərqlidir. Struktur yeniliklər və ya kadrların əvəzlənməsi kompleks islahat sayıla bilməz. Ancaq hesab edirik ki, bu da zəruridir. Çünki gənclik yeni düşüncə, yeni nəfəs, tərəqqi deməkdir. Bu, hakimiyyətin səlahiyyətinə aid olan məsələlərdir. Təbii ki, öz kadrlarını yerləşdirirlər. Onların hansı effekt verəcəyini isə yaxın zamanlarda görəcəyik. İnsanlar kadr dəyişikliyinin nəticəsi olaraq iqtisadi vəziyyətlərində irəliləyişin olmasını istəyirlər. Ölkə başçısı da yeni kadrların qarşısına bu tələbi qoyur. İqtisadiyyatın artımı, yeni iş yerlərinin açılması tələbi elə bunları şərtləndirə bilər. Buna da bir qədər vaxt lazımdır. Aparılan struktur islahatları normaldır. Hesab edirəm ki, hətta bir çox artıq qurumları vahid yerə yığıb, dövlət xərclərinə qənaət etmək olar.

*"Bunu etsələr, hakimiyyətin qanunverici qolu da yaxşı islahata məruz qala bilər"*

Parlament isə daha funksional olmalıdır. 20-25 il orada oturan adamlar artıq yorulublar. Bu qədər də deputat olmaq olar? Bu, seçkili orqandır, həmin adamlar istefa verib yerini başqasına verə bilməz. Söhbət növbəti seçkidə parlamentin nə vaxt və necə yeniləcəyindən gedirsə, bunu araşdırmaq olar. Razıyam ki, parlamentdə dəyişiklik olmadan atılan bu addımların effekti az olar. Burada dəyişiklik yalnız yaşla bağlı olmamalıdır. Biz istərdik ki, parlamentdə daha fərqli siyasi spektr təmsil olunsun. Müxalifət adı ilə ora düşənlər həqiqi müxaliflik etsinlər. Parlament seçkilərinin keçirilməsi ilə bağlı tələsmək lazım deyil. Onsuz da qanuni vaxtına da az qalıb. Ölkə bələdiyyə seçkiləri ərəfəsindədir. Hesab edirəm ki, hakimiyyət belə israfçılığa getməz. Çünki növbədənkənar parlament seçkilərinin keçirilməsi xeyli xərc apara bilər.

Vaxtında keçirilməsi daha yaxşı olar. Düşünürəm ki, hakimiyyət də bu versiyanın üzərində dayanacaq. Seçki mühiti yaxşılaşsa, biz normal parlamentə sahib olarıq. Bunun üçün vaxtın irəli çəkilməsi yox, parlamentə gedən yolu bir qədər asanlaşdırmaq lazımdır. Bunu etsələr, hakimiyyətin qanunverici qolu da yaxşı islahata məruz qala bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Əli İnsanovda İsa Qəmbəri və Əli Kərimlini cəlb edən uğursuz faktor - "Qərbi azərbaycanlılar İnsanovun sözü ilə oturub-durmaz"...

**Müsavat başqanı Arif Hacılının təşkil etdiyi bir görüş formatı ilə bağlı müzakirələr səngimir. Əsasən də müxalif cameə AXC şinelindən çıxmış şəxslərin Əli İnsanovla bir masa ətrafında oturub, fikir mübadiləsi aparmasını sərt tənqid edir.**



## *Musa Musayev: "Qərbi azərbaycanlıların ətrafında toplaşdığı bir adam olub, o da Ümummilli Lider Heydər Əliyev idi"*

Tənqidçilərin əsas arqumentləri budur ki, vaxtilə Əli İnsanov həmin masanın ətrafında əyləşənləri ən sərt formada təhqir edib. Onda isə sual olunur: bu cür ictimai qınağı təxmin edən radikallar niyə Əli İnsanov amilindən belə möhkəm yapışıblar? Buna müxtəlif cavablar verilir. Əsasən dövriyyəyə belə fikirlər buraxılır ki, Ə.İnsanovun ətrafında güclü və dinamik olan Qərbi azərbaycanlılardan ibarət elektorat var. Müxalifət Ə.İnsanovun bu gücündən guya yararlanmaq istəyir. Maraqlıdır, Qərbi azərbaycanlılar doğrudanmı Ə.İnsanovun ətrafında birləşib və onun göstərişlərinə qulaq asırlar?

1999-cu ildən YAP İdarə Heyətinin üzvü olan, 2000-2005-ci illərdə Milli Məclisin deputatı olmuş , 2006-2010-cu illərdə isə Naftalan şəhərinin icra başçısı işləmiş, əslən Qərbi Azərbaycandan olan Musa Musayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, heç vaxt vəzifədən gedən şəxslərin arxasınca danışmayıb: "Milli Məclisin deputatı olduğum illərdən əvvəl də mən aktiv siyasətin içində olmuşam. 1987-ci ildən arenadayam. Mən deyə bilərəm ki, bütün Qərbi azərbaycanlıların ətrafında toplaşdığı bir adam olub, o da Ümummilli Lider Heydər Əliyev idi. Bu gün də həmin elektorat onun layiqli davamçısı İlham Əliyevin ətrafında birləşir. Mən də həmin regionun tanınmış bir nümayəndəsi kimi cənab Prezidentin siyasətini dəstəkləyirəm. Heç kimə həmin regionun adından danışmaq səlahiyyəti verilmir. Mən hələ 2002-2003-cü illərdə parlamentdə çıxış edib demişəm ki, bir nömrəli Qərbi azərbaycanlı elə İlham Əliyevdir. İlham Əliyevin babaları və nənələri əslən həmin regiondandırlar. Bizim hamımızın bir lideri olub və indi də var. Bu da Heydər Əliyevlə, onun layiqli davamçısı İlham Əliyevdir. Əli həbsxanadan çıxanda onunla bağlı mənə bir neçə dəfə suallar verdilər. Mən dedim ki, Ə.İnsanov ilk olaraq Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etsin. Çünki Ə.İnsanov Heydər Əliyevlə birlikdə uzun müddət parlamentdə təmsil olunub. İlk 91-lərdən olub. Məhz bu amillərə görə onun Heydər Əliyevin məzarını ziyarət etməsini istərdim.

*"Mən hələ 2002-2003-cü illərdə parlamentdə çıxış edib demişəm ki, bir nömrəli Qərbi azərbaycanlı elə İlham Əliyevdir"*

**Onu bu nüfuza gətirən məhz Heydər Əliyev olmuşdu. Bunu etmədi. Mən bunu ən böyük səhvi kimi qəbul edirəm. Mən Ə.İnsanovla YAP Nəsimi rayon təşkilatında birlikdə təmsil olunmuşam. Şahidi olmuşam ki, hazırda həmin masanın ətrafında oturanları necə təhqir edib. Bu baxımdan da həmin format haqlı tənqidə məruz qalır".**

***Məhəmmədəli QƏRİBLİ***

# Qondarma "DQR"in özünün kağız pulları - suveren Azərbaycana qarşı cinayətdə Avropa Mərkəzi Bankının da adı keçir...

***Rüfət Quliyev:** "Avropa Mərkəzi Bankında "Artsax Respublikası"na həsr edilən "əskinası" çap etməklə onlar bütün beynəlxalq qanunları, eyni zamanda, mövcud qərarları pozublar"*

**Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qanunsuz əməllər, insanlığa və beynəlxalq qanunlara zidd əməllər törətməkdə davam edirlər. Qondarma "DQR"in "müstəqilliyi"nin tanıdılması üçün ermənilər hər vasitəyə əl atırlar. Bu məsələdə ermənilər əllərinə düşən bütün fürsətlərdən sui-istifadə edərək Azərbaycana qarşı təxribatlarını davam etdirirlər.**

Qondarma rejimin "müstəqilliyini" tanıtmaq üçün ermənilər bir sıra işlər görür və təbii ki, bu işlərin hamısı Azərbaycana qarşı təxribatdır.

Saytlarda və sosial şəbəkələrdə yayılan məlumata görə, Azərbaycan torpaqlarında ermənilərin yaratdıqları qondarma "Artsax Respublikası"na həsr olunmuş "əskinaslar" dövriyyəyə buraxılacaq.

Onu da vurğulayaq ki, bu, ermənilərin Avropada Azərbaycana qarşı növbəti təxribatıdır və bu təxribata Avropadakı anti-Azərbaycan qüvvələrinin də qoşulduğu aydın şəkildə görsənir.

Məlum olduğu kimi, "Euro Souvenir Bank" saytında üzərində qondarma Qarabağ rejiminin "simvolları" əks olunmuş "0" nominallıq yeni "əskinaslar" təqdim edilib.

Noybarın 11-də dövriyyəyə buraxılacaq "əskinaslar" Avropa Mərkəzi Bankının dəzgahlarında buraxılacaq və rəsmi əmtəə nişanı alacaq.

Avropa Mərkəzi Bankının dəzgahlarında çap ediləcək və rəsmi əmtəə nişanı alacaq "Artsax Respublikası"na həsr edilən "əskinaslar"ın dövriyyəyə buraxılmasının Azərbaycana qarşı təxribat olduğunu və bu təxribatda Avropadakı anti-Azərbaycan qüvvələrinin də yaxından iştirak etdiyini deyən tanınmış iqtisadçı, millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu "əskinaslar"ın hazırlanmasında əsas məqsəd qondarma "DQR"in "müstəqil dövlət" olaraq tanınmasına nail olmaqdır. Ermənilərin bu təxribatına Qərb ölkələrindən də dəstək verildiyini deyən R.Quliyev hesab edir ki, bunu edənlər Azərbaycan dövlətinin müstəqil və uğurlu xarici siyasət yürütməsini həzm edə bilməyən qüvvələrdir. "Bilirsiniz ki, Avropada,



*"...məqsədli şəkildə, bilərəkdən həyata keçirilib"*

Qərbdə Azərbaycana yanaşmada həmişə ikili standart mövcud olub. Biz bunu Dağlıq Qarabağ probleminə münasibətdə də görürük. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT-nin dörd qətnaməsi var və bu qətnamələr indiyə qədər yerinə yetirilməyib. Baxmayraq ki, bütün dünya, beynəlxalq aləm Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi qəbul edib tanıyır. Amma bununla yanaşı, yenə də separatçı rejimlə əlaqələr qurulur, Avropa ölkələri, ABŞ-dan qondarma "respublika"ya deputatlar, rəsmi şəxslər səfər edirlər. Bu yalnız Avropada erməni lobbisinin güclü olmasının nəticəsi deyil, həm də burada Azərbaycanı istəməyən qüvvələrin də rolu var. Aydındır ki, Qərbdə, Avropada Azərbaycan dövlətinin həyata keçirdiyi müstəqil xarici siyasəti həzm edə bilməyənlər az deyil. Doğrudur, bu ölkələrdə bizi istəyənlər də çoxdur, amma istəməyənlər də yox deyil. Təəssüflər olsun ki, Azərbaycanı istəməyən ermənipərəst qüvvələr bizə qarşı daha mütəşəkkil işləyirlər. Bu gün ermənilər və ermənipərəst qüvvələr hər nə yolla olsa da, "Artsax"ı "müstəqil dövlət" kimi tanıtmaq istəyirlər. Bu faktdır. Bilirsiniz ki, bu ayın əvvəllərində qondarma "DQR"də yaradılan "Artsax" adlı akademik musiqi ansamblının Krımda konserti keçirildi. Konsert keçirilməmişdən bir neçə gün əvvəl mən Ukraynanın Azərbaycandakı səfirinə müraciət etdim və bu məsələyə siyasi qiymət verilməli olduğunu dedim. Mənə bildirdilər ki, Ukraynanın Xarici İşlər Nazirliyi dərhal Ermənistanın bu ölkədəki səfirini nazirliyə dəvət edib və məsələni onlara izah edib, səfirlikdən isə konsertin keçirilmədiyi bildirilib. Lakin təəssüf ki, Krımda sözügedən konsert keçirildi və orada ermənilər "Artsax", "Hayastan" deyiblər. Krımda keçirilən bu konsertdən ermənilərin siyasi məqsədlər üçün istifadə etdiyi məlumdur. Gərək buna Rusiya dövləti müdaxilə edəydi. Ən azından, ATƏT-in Minsk Qrupunun üzvü kimi Rusiya qondarma rejimin adından çıxış edən ansamblla, burada səsləndirilən fikirlərlə bağlı addımlar atmalı idi. Rusiya Dağlıq Qarabağı "müstəqil dövlət" kimi deyil, Azərbaycanın tərkib hissəsi olaraq tanıyır".

"Artsax Respublikası"na həsr edilən "o" nominallı "əskinasın" çapına gəlincə, R.Quliyev qeyd etdi ki, Avropa Parlamentində də Qarabağın Azərbaycanın olması dəfələrlə səsləndirilib. "Avropa Mərkəzi Bankında "Artsax Respublikası"na həsr edilən "əskinası" çap etməklə onlar bütün beynəlxalq qanunları, eyni zamanda, mövcud qərarları pozublar. Digər tərəfdən, hesab edirəm ki, bu "əskinasın" çapı məqsədli şəkildə, bilərəkdən həyata keçirilib. Düşünürəm ki, bu kimi qanunazidd addımlar atmaqla Avropa özünü problemə düçar edir. Belə bir "əskinasın" çap edilməsi cinayətdir və Avropa Birliyi də bununla həmin cinayətə şərik olur. Bilirsiniz, bunlar bir tərəfdən Dağlıq Qarabağın Azərbaycanın ərazisi olduğunu tanıdıqlarını deyirlər, digər tərəfdən də ermənilərə bu şəkildə dəstək verirlər. Çox təəssüflər olsun ki, bu, ikili standartın nəticəsidir. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır və bərpa olunmalıdır. Ermənilər ərazi bütövlüyümüzə qəsd xarakteri daşıyan təxribatları ilə heç nəyə nail ola bilməyəcəklər" - deyə R.Quliyev qeyd etdi.

**İradə SARIYEVA**

# "Real" hay-küylə hərəkatdan partiyaya çevrildi, çox asanlıqla da dağılıb getdi - Səbəb...

***Rasim Quliyev:** "İlham Əliyevin xalq içində nüfuzu, xarizması buna imkan vermir"*

**Respublikaçı Alternativ Partiyasının (Real) Ali Məclisinin başqanı Azər Qasımlı partiyadan istefa verib. O, istefa bəyanatını mətbuat konfransında səsləndirib. Azər Qasımlı sədr İlqar Məmmədovu "Real" Partiyasında avtoritarizm qurmaqda ittiham edib və bunu noyabrın 3-də partiyanın bütün strukturlarını buraxmaqla, qurultaya hazırlaşmasında göstərib.**

Onun fikrincə, İlqar Məmmədovun təklif etdiyi strukturlarda nə hesabatlılıq, nə məsuliyyət, nə yerli təşkilatlar, nə də üzvlərlə kommunikasiya olacaq: "Sadəcə, bir sədr olacaq. O da zaman-zaman fitvalar verəcək, statuslar yazacaq. Bütün üzvlər də sədrin nə dediyini gözləyəcək. Sədr deyəcək mitinqə gedin, onlar da gedəcək. Yəni İlqar Məmmədovun təklif etdiyi strukturun mahiyyəti bundan ibarətdir".

Azər Qasımlı deyib ki, o özünü bu strukturda görmür: "Gözəl sözlərin arxasında gizlənmək olar, zatən, tarix də bu cür yazılıb. Hitler də, kommunistlər də gözəl sözlərin arxasında gizlənərək totalitar rejim yaradıb. Müəyyən zamandan sonra "Real" Partiyası sıradan çıxarılacaq. Mən başlanan prosesin arxasında bunu görürəm".

Ancaq Azər Qasımlı siyasətdən getmədiyini bildirib: "Siyasətdən, "Real" ailəsindən getmirəm. Yalnız İlqar Məmmədovun partiyasından gedirəm. Mən özümü bu partiyada görmürəm. Hesab edirəm ki, adamın partiyası yox, partiyanın adamı olmaq lazımdır. Ancaq indiki mərhələdə, yaxın bir ildə mən partiya yaratmayacağam. Bu, siyasətdən kənar qalmağım kimi qəbul edilə bilməz".

A.Qasımlı partiyada onun mövqeyini digərlərinin bölüşməsi ilə bağlı suala konkret cavab verməyib: "İlqar Məmmədovun təkliflərinin keçməsi sıfıra bərabər idi. Mən şəxsən bu təkliflərin keçməməsi üçün çox çaba göstərdim. Buna görə bütün məclis üzvlərindən qurultaya getmələrini xahiş etdim. Əks təqdirdə həmin məclisdən iki "Real" Partiyası çıxacaqdı. Mən isə bunu istəmirdim, çünki bu, 90-lardan qalan ənənədir. Ona görə bu prosesdə iştirak etmədim. Hesab edirəm ki, düzgün addım atmışam".

Partiyanın icra katibi Natiq Cəfərli bu hadisə ətrafında yaranan bəzi rəylərə sosial şəbəkə vasitəsilə toplu şəkildə cavab verib: "Real"a İlqara görə gələnlər sırağa gündən, Erkinə, Natiqə, Rəsula, Xalidə görə gələnlər dünəndən, Azərə görə gələnlər isə bu gündən getsinlər. "Real" bu ölkənin indiki dönəminin (gələcəkdə daha yaxşıları mütləq olacaq) son şansı, dəyərləri, vizionu, aydın hədəfləri olan təşkilat, şəxsi uğur hekayəsi olan liderlərin partiyasıdır. "Real" həm də yol açmaq üçün yarandı, sabah biz olmasaq da, "Real" olacaq - çünki şəxs üzərində qurulan təşkilat deyil və bunu ən çox da bu gün qapını çırpıb gedənlər bilirlər. "Real" həm də şəxsi maraqlarını, içiboş ambisiyalarını, inciklikləri ümumi faydaya görə içinə gömməyi bacaran şəxsiyyətlərin təşkilatıdır. "Real"ın təməl fəlsəfəsi kollektiv kimlikdir, həmişə də belə olacaq! Siyasətə gəlməyi öyrənmək kimi, getməyi də bacarmaq lazımdır, gedərkən də içdiyin qabın içinə tüpürməmək böyüklüyü də vacibdir. Zaman-zaman müxtəlif səbəblərə görə "Real"ın vitrinində olan sevimli, önəmli insanlar sıralarımızı tərk edib, amma hər biri "Real"ın təməl fəlsəfəsinə sadiq insanlar olduğu üçün, bunu şouya çevirməyiblər. Həmin insanları hamınız tanıyırsınız, onlara bir daha təşəkkür edirəm və tezliklə onları yenidən "yuvada" görəcəyimizə ümid edirəm, hətta buna əminəm! "Real" ölkə tarixində öz rolunu oynayıb, oynayır, oynayacaq da! Hədəf Cümhuriyyət - gerisi təfərrüat".

Göründüyü kimi, Azər Qasımlının qəfil istefası "Real"ı silkələyib. Bildirilir ki, yaxın zamnlarda Azər Qasımlının tərəfdarları da onun ardınca partiyanı tərk edəcəklər. Əsasən İlqar Məmmədovun həbsdə olduğu dönəmdə partiyaya çevrilən bu təsisat liderinin həbsdən çıxmasından sonra geriyə gedir. İlqar Məmmədov isə lağ-lağı statuslar yazmaq və bir qrup feminist qadınla aksiyada yanaşı addımlamaqdan başqa hansısa uğura imza ata bilməyib. Ciddi təzyiqlərlə üzləşməyən bir partiyanın qısa müddətdə belə sonluğa yuvarlanmasının kökündə hansı amil dura bilər?

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, bunun bir sıra köklü səbəbləri var: "Bizdə müxalifət anlayışı lazımınca dərk edilmir. Onunla peşəkarcasına məşğul olmurlar. Siyasətçilərdən daha çox incik adamların toplumunu xatırladır o qruplar. Mən onlara qüvvə yox, qrup deyirəm. Çünki qüvvə ola bilməyiblər. Bunlar elə başa düşürlər ki, həddən artıq aqressiv olmaqla nəyəsə nail ola bilərlər. Bəzən isə bu aqressiya elə əndazəni aşır ki, onlar hakimiyyətə yox, hətta dövlətə müxalif olurlar. Şüurlarında müxalifətçilik düşüncəsi lazımi şəkildə formalaşmadığı üçün də belə yarpaq tökümlərinə məruz qalırlar. Əslində, bizim iqtidara da normal müxalifət lazımdır. Dövlətin idarə olunması üçün bu vacib mexanizmdir. Ancaq bu mübarizə düşmənçilik həddində aparılmamalıdır. Cəmiyyət rəqabətsiz inkişaf edə bilməz. İqtidarın addımlarını qərəzli deyil, düzgün tənqid edən müxalifətə hamının ehtiyacı var. Bizimkilər isə hesab edirlər ki, bunlar ən radikal formada dövlətin əleyhinə olmasalar, mandatları əllərindən alınacaq. Məsələn, bu yaxınlarda Cəmil Həsənlinin ABŞ-dan Azərbaycana sanksiya tətbiqini tələb etməsini də bu qəbildən saymaq olar. Belə müxalifət olmaz. Bu, dövlətin əleyhinə çıxış etməkdir. "Real" partiyasının uğursuzluq hekayəsi də bununla bağlıdır. Birincisi, onlar cəmiyyətdə özlərinə sosial dayaq tapa bilmirlər. Çünki İlham Əliyevin xalq içində nüfuzu, xarizması buna imkan vermir. Əhalinin böyük hissəsi bu səbəbdən iqtidarı dəstəkləyir. İkincisi isə, onların öz aralarında baş verən çəkişmədir. "Real" bir qədər fərqli üsulla siyasətə girişdi. Ortaya intellekt qoymaq istədi. Amma fikir verdinizsə, onları da ənənəvi müxalifət linç etdi. Bütün günü sosial şəbəkələrdə onlarla Əli Kərimlinin tərəfdarları arasında dava gedirdi, bir-birini söyürdülər. Bununla da "Real" ənənəvi müxalifətin oyununa düşüb, onların yolunu getməyə başladılar. Bir səbəb də bundan ibarətdir ki, müxalifət bazarını zəbt edənlər yeni qüvvənin meydana çıxmasını istəmirlər. İki səbəb var: hazırkı şərait və digər radikal müxaliflərin intellektual müxalifətin cücərməsinə imkan verməməsi".




*"Bir səbəb də bundan ibarətdir ki, müxalifət bazarını zəbt edənlər yeni qüvvənin meydana çıxmasını istəmirlər"*

***Məhəmmədəli QƏRİBLİ***

# Mnatsakanyan Londondan sonra ikinci zərbəni İsveç Universitetində aldı - Nazir Azərbaycanı işğalçı kimi təqdim edə bilmədi...

**İsveç Beynəlxalq Əlaqələr İnstitutunda Şərq Tərəfdaşlığının 10 illiyinə həsr olunmuş "Ermənistan və Ukrayna nazirləri ilə söhbət" tədbirində öz mühazirəsindən sonra Ermənistan XİN başçısı sualları cavablandırıb. Erməni KİV-nin verdiyi məlumata görə, XİN başçısı azərbaycanlı deputatın "Ermənistan ermənilərin törətdikləri hərbi cinayətləri, etnik təmizləmələri araşdırmaq üçün Azərbaycanla beynəlxalq məhkəməyə getməyə hazırdırmı?" sualını cavablandırıb.**

Araşdırmamızdan sonra məlum oldu ki, erməni nazirə bu sualı ünvanlayan millət vəkili Asim Mollazadə olub. Ancaq erməni nazir bu dəfə də öz təcrübəsizliyini göstərərək, özünü növbəti dəfə ifşa edib.

Qeyd edək ki, bu günlərdə Ermənistan XİN rəhbəri Londonda olarkən "BBC" radiosunun suallarını cavablandırarkən də özünü aciz vəziyyətə salmışdı. O, Dağlıq Qarabağla bağlı ünvanlanan suallara lazımi səviyyədə cavab verə bilməmişdi. Gəlin, Mnatsakanyanın İsveçdə özünü necə biabır etdiyinə diqqət edək.

Nazir deyib: "Siz Bakı haqqında eşitmisiniz? Sumqayıt, Marağa haqqında eşitmisiniz? Şaumyan rayonunun işğalı haqqında eşitmisiniz? Mardakert rayonunun bir hissəsinin işğalı haqqında eşitmisiniz? Martuni rayonunun bir hissəsinin işğalı haqqında eşitmisiniz? Davam etməmi istəyirsiniz? Söz məhz bunun haqqındadır. Ritorikanı azaltmağa hazırsınız? Narahatlıqlarımızı başa düşməyə hazırsınız? Belə dialoqa hazırsınız? Yoxsa sizin dediyiniz həqiqət olmalıdır, ondan başqa heç bir həqiqət yoxdur. Yalnız sizin istədiyiniz həll olmalıdır, yoxsa heç bir həll yoxdur. Belə heç bir zaman sülhə malik olmayacağıq. Xalqların sülhə hazırlanmasına dair qeyd etdiyim təminatın əsası budur. Siz yalnız sizi narahat edən məsələlər haqqında danışırsınız. Mələk kimi görünməyə çalışmaq lazım deyil. Mən təhlükəsizlik məsələsinin olduğunu, işğala imkan verməyən yeganə təhlükəsizlik təşkilatının olduğunu dedim. Bu sözlər bildiyiniz və teztez istifadə etdiyiniz sözlərdir".

Göründüyü kimi, erməni nazir bu mövzuda ortaya ciddi bir arqument qoya bilmir və yalnız səs-küy salmaqla sualdan yayınmaq istəyir. A.Mollazadənin sonradan ona necə cavab verdiyini bilmirik. Çünki bununla bağlı informasiya əldə edə bilmədik. İstənilən halda, A.Mollazadə erməni nazirin sözünü kəsməli də olsaydı, onun sayıqlamalarına cavab verməli idi. Çünki Mnatsakanyanın səsləndirdiyi fikirlərin hamısı yalan üzərində qurulub.

Sözügedən tədbirdə iştirak edənlərdən biri də siyasi fəal Bəxtiyar Hacıyev olub. O, sosial şəbəkədəki hesabında bununla bağlı fikirlərini paylaşıb: "Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan İsveç Beynəlxalq Əlaqələr İnstitutunda Şərq Tərəfdaşlığı mövzusunda çıxış edirdi. Çıxışında Ramil Səfərov mövzusu, onun əfv edilməsi məsələsinə də toxunaraq, elə bir görüntü yaratmağa çalışırdı ki, sanki Ermənistan sülh carçısıdır və münaqişənin həll olunmamasının tək müqəssiri Azərbaycandır.

Mnatsakanyan bir az həşir salıb, hay-küylə Azərbaycan tərəfinin də müqəssir olduğunu bildirdi və sonda Azərbaycan tərəfinə xitabən "burada mələk kimi görünməyə çalışmaq lazım deyil" dedi. Sonra mən söz aldım, dedim ki, Ermənistanda hakimiyyət dəyişikliyi baş verəndə yaxından izləyirdik və bir çoxlarında müsbət gözləntilər vardı ki, Paşinyan hakimiyyəti Qarabağ mövzusunda konstruktiv, ağıllı davranacaq. Amma biz sizin Vaşinqtonda, Brüsseldə və digər Avropa paytaxtlarında çıxışlarınızla Ermənistandakı çıxışlarınızı dinləyəndə tam əks mənzərə görürük. Birtərəfli çıxış edirsiniz və buralarda sülhdən danışıb, Ermənistanda tam əks addımlar atırsınız".

Siaysi fəal vurğulayıb ki, bu çıxışının ardınca erməni terrorçuların Ermənistanda qəhrəman kimi qəbul edilməsi barədə danışmağına moderator mane olub və suala keçməsini istəyib:

"Suala keçəndə dedim ki, bayaq dediniz mələk kimi təqdim edirsiniz özünüzü, amma siz də mələk deyilsiniz və özünüzü belə təqdim edirsiniz. Hamımıza məlumdur ki, Şərq Tərəfdaşlığının rifahı, təhlükəsizliyi, stabilliyi üçün Qarabağ münaqişəsinin həlli vacibdir. Necə ola bilər ki, Şərq Tərəfdaşlığının bir ölkəsinin baş naziri bütün ölkələr tərəfindən başqa bir Şərq Tərəfdaşlığı ölkəsinin ərazisi sayılan, işğal altındakı torpaqlara gedib, "Qarabağ Ermənistandır və nöqtə" deyir, Qarabağın Ermənistana birləşdirilməsinə çağırış edir və sülhdən danışır. Bu, sülhə necə töhfə verir?

Mnatsakanyan bir neçə başqa sualı alandan sonra sualıma anlaşılmaz, "Baş nazirimizin Qarabağdakı çıxışı elə onu göstərirdi ki, münaqişənin həlli Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ xalqlarından asılıdır" kimi absurd cavab verdi. Amma sonradan tədbir iştirakçılarının bir neçəsi yaxınlaşaraq, yerində sual verildiyini və cavabın absurd olduğunu bildirdilər".

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev qəzetimizə bildirdi ki, Mnatsakanyanın məlum çıxışı bir daha göstərdi ki, ermənilərin arqumentləri bitəndə haray-həşir salırlar: "Erməni nazir bilir ki, beynəlxalq müstəvidə yaranmış vəziyyətin araşdırılması onlara sərf etmir. Çünki ortada işğal faktoru var. Ancaq görün o nə arqument səsləndirir? Deyir ki, guya işğalı Azərbaycan edib. Maraqlıdır ki, bu xüsusda Azərbaycanın öz ərazilərinin adlarını çəkir. Keçmiş Martuni, Mardakert necə işğal oluna bilər? Azərbaycan özü öz ərazilərini işğal edib? Bakı, Sumqayıt deyəndə guya buradakı ermənilərə edilən hərəkətlərdən söhbət açır. Bəllidir ki, Sumqayıtdakı hadisələri də rus KQB-si ermənilərin əli ilə törətmişdi. Marağaya gəldikdə isə, bu da Tərtər rayonunun inzibati vahidinə aid olan kənddir. Ermənilərin Azərbaycandan köçməsinə gəldikdə isə, bu prosesi də onlar başlayıb. 200 min soydaşımız Ermənistanda yaşadıqları öz ata-baba yurdlarından köçürüldü. Təbii ki, ermənilər bu vəziyyəti gördü və özləri Azərbaycanda yaşamaq istəmədilər. Buranı seçib yaşayan da oldu. Hazırda Azərbaycanda kifayət qədər erməni yaşayır. Ermənistan isə monoetnik ölkədir. Mnatsakanyanın bu çıxışı iştirak etdiyi toplantının formatına birbaşa zərbədir. Çünki Şərq Tərəfdaşlığının uğurlu inkişafı üçün təhlükəsizlik, sülh, əminamanlıq olduqca vacib şərtdir. Ermənistan isə buna maneə törədir. Onların XİN rəhbəri isə vəziyyəti daha da gərginləşdirməyə çalışır. Fikir verirsinizsə, o, şantajı ilə, hay-kül salmaqla çalışır ki, Azərbaycandan ritorikanı azaltmağı tələb etsin. Bizi işğal amili ilə barışmağa dəvət edir. XİN rəhbəri bununla bir daha sübut etdi ki, onlardan hansısa konstruktivliyi gözləməyə dəyməz".




***Məhəmmədəli QƏRİBLİ***

**Enerji bazarının ən böyük istehlakçılarından biri sayılan Avropada təbii qaza tələb getdikcə artmaqdadır. Məlumat üçün bildirək ki, 2018-ci ildə Avropa 390 milyard kubmetr qaz ixrac etməli olub. Bu həcmin yarısını Rusiya təmin edib.**

# Danimarka krallığının rus kəmərinə maneçilik qərarı Azərbaycan qazını "hava-su" vacibliyinə yüksəltdi




Belə ki, "Qazprom" Avropaya rekord həcmdə, yəni 201,7 milyard kubmetr qaz ixrac edib. İldə 55 milyard kubmetr qaz nəql etmək gücünə malik olacaq "Şimal axını-2" qaz kəmərinin işə salınması ilə qaz ixracı əhəmiyyətli dərəcədə artacaq. Amma bu kəmərin çəkilişi ilə bağlı ciddi bir problem ortaya çıxıb. Danimarkanın ərazi sularında boru kəmərinin çəkilməsinə rəsmi Kopenhagen hələ də icazə vermir.

Xatırladaq ki, "Gazprom", "E.ON", "BASF" və "OMV" şirkətləri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr qaz nəql edəcək gücə malik 200 kilometr uzunluğundakı "Şimal axını-2" qaz kəməri üzrə müqavilə imzalayıblar. Ötən dövr ərzində kəmərin çəkilməsi istiqamətində mühüm addımlar atılıb. Kəmər Rusiya qazını Almaniyanın Baltik dənizi sahillərində yerləşən Lubmin adlı kommunasına çıxarmalıdır. Qaz kəməri Avropanın qaz nəqliyyat sisteminə məhz burada qoşulmalıdır. Boruların artıq 87 faizi Baltik dənizinin dibi ilə çəkilib və magistralın bu ilin sonuna qədər işə salınması nəzərdə tutulub. Müvafiq konsorsium nümayəndələri bu yaxınlarda bildiriblər ki, qalan işləri vaxtında başa çatdırmağa ümid bəsləyirlər. Lakin bu günlərdə boru kəmərini çəkənlər üçün xoşagəlməz hadisə baş verib. Rəsmi Kopenhagen Danimarkanın ərazi sularında boru kəmərinin çəkilməsinə icazə verməyib. Odur ki, Rusiyadan Almaniyaya qaz kəmərinin vaxtında istifadəyə verilməsi hələlik sual altındadır. Konsorsium apelyasiya şikayəti verib və indi məsələ baxılması üçün Danimarka hökumətinə qaytarıla bilər.

Yeri gəlmişkən, qaz kəmərinin Almaniya hissəsinin dəniz və yerüstü sahələrində işlər başa çatmaq üzrədir və Almaniya Rusiyadan qaz qəbul etməyə hazırdır. İndi iş Danimarkaya qalıb. Lakin bu ölkə cavab verməyə hələlik tələsmir. Kopenhagenin cavabı nə qədər uzadacağı isə hələlik məlum deyil. Eyni zamanda belə icazənin verilməməsi üçün ABŞ-dan da Danimarkaya təzyiqlər artır. Avropada məsələyə yanaşma fərqlidir. Bəziləri kəmərin çəkilməsini istəsələr də, digərləri onun əleyhinə çıxır. Halbuki, Avropada qaza tələb sürətlə artır. Bu xüsusda Rusiyanın "RİA Novosti" portalı yazır: "Şimal axını-2" qaz kəməri çərçivəsində "Qazprom"un tərəfdaşı olan Almaniyanın "Uniper" enerji şirkətinin rəhbəri Andreas Şirenbek qeyd edib ki, hətta sözügedən qaz borusu Avropanın qaza artan tələbatını ödəməyəcək. Onun fikrincə, kontinent üzrə qaz defisiti ildə 300 milyard kubmetrə çata bilər.

Qaz çatışmazlığının yaranmasına əsas səbəb onun Avropada istehlakının artması yox, yerli istehsalın azalması olub. Avropa İttifaqı üzrə bütün qazın altıda bir hissəsini hasil edən Qroningendə (Niderland) qaz quyularının konservasiyası həyata keçirilir. Buradakı yatağın tam olaraq bağlanması tarixi isə dəyişdirilərək, 2030-cu ildən 2022-ci ilə keçirilib. Danimarka da qaz hasilatını azaltmaqdadır. Ölkənin "Tayra" qaz yatağı fəaliyyətini müvəqqəti olaraq dayandırıb və krallıq hazırda qazı boru xətti vasitəsilə Almaniyadan alır. Həmçinin Norveçdə və Böyük Britaniyada da qaz hasilatının və tədarükünün azaldığını qeyd etmək lazımdır. Tələb və təklif arasında əhəmiyyətli bir fərq yaranmaqdadır. Buna görə də "Uniper"in rəhbəri əmindir ki, Avropa tezliklə qazın həm boru xətti ilə, həm də mayeləşdirilmiş şəkildə tədarükü ehtiyacı ilə üzləşəcək. Qeyd edək ki, Əlcəzair də qazın Avropaya ixracını artırmaq qabiliyyətində deyil, çünki ölkə daxilində istehlak artmaqdadır. 40 il ərzində ilk dəfə olaraq bu il istehlak göstəricisi 50 faizi ötüb.

Ölkənin qaz ixracatı isə 20 faiz azalaraq 20,5 milyard kubmetrə düşüb. Ola bilsin ki, yaxın gələcəkdə avropalılar qaz tədarükü məsələlərində daha praqmatik mövqe tutaraq Rusiyadan qaz idxalının artımının qarşısını almayacaq. Eləcə də digər mənbələrə diqqət daha da artacaq. Məsələn, Azərbaycan üzərindən İran, Türkmənistan qazının alışı daha da aktuallaşa bilər".

Xatırladaq ki, artıq gələn ildən Azərbaycan qazının Avropaya satışı həyata keçiriləcək. Ümumiyyətlə, Azərbaycan ilk mərhələdə Avropaya ildə 10 milyard kubmetr qaz satışını həyata keçirəcək. Daha sonra bu göstərici iki dəfəyədək artacaq. Amma perspektivdə "Cənub Qaz Dəhlizi"nə Türkmənistan və İran kimi ölkələrin də qoşulması mümkündür. Bütün bunlar fonunda təsadüfi deyil ki, Avropa Komissiyası "Cənub Qaz Dəhlizi"nin əsas tərkib hissələrindən sayılan TAP qaz boru kəməri layihəsini yenidən Avropa İttifaqının ümumi maraq layihələri siyahısına daxil edib. Sayca dördüncü dəfə hazırlanan ümumi maraq layihələri üzrə qaz layihələrinin sayı 2 il əvvəllə müqayisədə 53-dən 32-yə enib. Ümumilikdə ümumi maraq layihələri siyahısındakı bütün layihələrin sayı 21 faizədək azalıb. Amma TAP həmişəki kimi yenə Avropa üçün mühüm layihə sayılıb.

Xatırladaq ki, TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. Görünən budur ki, Avropa ehtiyaclarının artması fonunda Azərbaycandan böyük həcmdə qaz alışında artıq xüsusi maraqlı tərəf kimi çıxış edir.

**Bundan əvvəl də "Deutsche Wirtschafts Nachrichten" nəşri qeyd edirdi ki, Avropanın qaz istehlakı son illərdə durmadan artır və Avropa İttifaqı qaz idxalını şaxələndirmək istəyir: "Avropaya təbii qazın ixracından, eyni zamanda, Azərbaycan özü də böyük gəlirlər əldə edəcək. Avropanın isə təbii qaza tələbatı növbəti on ildə də artmaqda davam edəcək. Bu baxımdan Azərbaycan Avropanın enerji təhlükəsizliyində bundan sonra da mühüm rol oynayacaq".**

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan diplomatiyası Ermənistanı ABŞ və Rusiyanın gözündən tam saldı

**Cənubi Qafqazın lider dövləti olan Azərbaycana beynəlxalq miqyasda marağın artması, ölkəmizlə müxtəlif istiqamətlərdə əlaqələrin dərinləşməsi işğalçı Ermənistanda indi böyük təşviş, həm də qısqanclıqla qarşılanır. Bu hal, xüsusən də Qərb dövlətləri, o cümlədən ABŞ-la ölkəmiz arasında ən fərqli sferanı əhatə edən əlaqələrin intensivləşməsi fonunda özünü qabarıq formada büruzə verir.**

Ermənistanda hesab edilir ki, Azərbaycanın ABŞ-la intensivləşən hərbi, siyasi əlaqələri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın okeanın o tayından daha çox dəstək alması ilə nəticələnəcək.

Ümumiyyətlə, hadisələrin inkişaf axarı Azərbaycanla ABŞ arasında həqiqətən, hərb sferası da daxil olmaqla, münasibətlərin yüksələn xətt üzrə inkişafını aydın surətdə nümayiş etdirir. Azərbaycan-ABŞ hərbi əlaqələrinin genişləndirilməsi, təhlükəsizlik, hərbi təhsil, Azərbaycan sülhməramlı kontingentinin NATO-nun Əfqanıstanda həyata keçirdiyi qeyri-döyüş missiyasına verdiyi töhfə daim hər iki tərəfdən yüksək qarşılanıb. Onu da xatırladaq ki, ABŞ və Azərbaycan arasında hərbi, təhlükəsizlik sahəsində əməkdaşlığın tarixi Azərbaycanın müstəqilliyinin bərpasının ilk vaxtlarına gedib çıxır. O vaxtdan bəri ABŞ Azərbaycanla bu istiqamətdə əlaqələrin inkişafını xüsusi diqqət mərkəzində saxlayır. Son dövrlərdə isə münasibətlərdə yeni intensivlik nəzərə çarpır. Hətta ABŞ, əvvəlki dövrlərdən fərqli olaraq, Azərbaycana artıq hərbi texnikaların satışında belə maraqlı olduğunu açıq bəyan edir. Belə vəziyyət isə, yuxarıda qeyd olunduğu kimi, Ermənistanda böyük narahatlıq yaradır. Erməni amerikaşünas Suren Sarkisyan bu xüsusda bildirir:

"Birləşmiş Ştatlarla əməkdaşlığı regional kontekstdə müşahidə etsək, ABŞ-ın Ermənistandan fərqli olaraq Azərbaycanla aktiv gündəmi var".

O, cəmi bir neçə gün bundan öncə Azərbaycan və ABŞ müdafiə nazirlərinin görüşünü, ikitərəfli əlaqələrlə bağlı bəzi proqramları müzakirə etdiyini xatırladıb: "Gürcüstanla da məzmunlu iş var, silahlı qüvvələr, təhlükəsizlik sistemi və sair. Türkiyəyə gəlincə, bu gün müəyyən qədər gərginlik var, lakin Türkiyə Birləşmiş Ştatlar üçün strateji əhəmiyyətə malikdir və bugünkü pis münasibətlər belə qalmayacaq, təbii olaraq əlaqələrin istiləşməsinə doğru yerdəyişmələr olacaq. İran isə ABŞ-ın hədəfində hər zaman bir nömrəli düşmən kimi qalır". Erməni amerikaşünas bildirib ki, müqayisədə hər şeyi düzgün müşahidə edilib: "Yenidən müqayisəyə toxunaq: Azərbaycan müdafiə naziri ABŞ Müdafiə naziri ilə görüşüb, lakin bizim müdafiə nazirimizlə hələ görüş olmayıb. Ümid edirəm ki, görüş planlaşdırılma mərhələsindədir. Həm Azərbaycan, həm də Gürcüstan rəsmiləri ilə aktiv əlaqələr var. Bu baxımdan onlar daha irəli gedib, Birləşmiş Ştatlarla daha operativ və effektiv işləyirlər. Azərbaycan bu məsələdə çox nailiyyətlər əldə edib. Bizdə isə problemlər qalmaqdadır. ABŞ üçün Azərbaycan daha vacibdir".

Xatırladaq ki, ötən ayın sonunda NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində Brüssel şəhərində keçirilmiş toplantısı çərçivəsində ABŞ tərəfinin təşəbbüsü ilə bu ölkənin müdafiə naziri Mark Esperlə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov arasında görüş keçirilib. Tərəflər Azərbaycanla ABŞ arasında ikitərəfli və NATO çərçivəsində hərbi əlaqələrin inkişaf perspektivlərini, o cümlədən hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın daha da genişləndirilməsini, eləcə də regional və qlobal təhlükəsizlik məsələlərini müzakirə ediblər. Görüşün bilavasitə ABŞ tərəfinin təşəbbüsü ilə baş tutması elə o vaxtdan Ermənistanda böyük narahatlıq yaradıb.

Azərbaycandan fərqli olaraq, ABŞ-da Ermənistan rəsmilərini yüksək səviyyədə qəbul etmirlər. Erməni politoloq Suren Sarkisyan bildirir ki, bu, ABŞ-ın Azərbaycan və Ermənistana hansı münasibət bəsləməsinin real təzahürüdür. Onun sözlərinə görə, ABŞ təkcə son 2 ildə Azərbaycana 100 milyon dollar hərbi yardım edib: "Ermənistana münasibət isə fərqlidir. Bizə hərbi yardım, demək olar ki, dayandırılmaq həddinə gəlib çatıb. Cari il ərzində Ermənistana demokratik inkişaf, korrupsiyaya qarşı mübarizə, təhlükəsizlik, energetika, təhsil, ingilis dilinin tədrisi, meşə xidmətləri və digər sahələr üçün yardım ayrılıb. Bu fonda diqqətçəkən məqamlardan biri Azərbaycan müdafiə nazirinin Pentaqon rəhbəri ilə görüşərək ikitərəfli hərbi əməkdaşlığı müzakirə etməsidir. Bizim müdafiə naziri hələ də belə görüş keçirə bilməyib. Ermənistan baş nazirinin isə, ən yaxşı halda, ABŞ Dövlət Departamentinin Qafqaz və regional münaqişələr ofisinin direktoru Şeril Fernandes ilə görüşü baş tutur. Bunlar da ABŞ üçün Ermənistanın arxa plana düşdüyünü təsdiq edir. Amma onların Azərbaycana münasibəti fərqlidir".

Digər erməni ekspert Edvard Sanamyan vurğulayır ki, Azərbaycan geosiyasi müstəvidə daha uğurlu manevrlər edərək Rusiyanın ardınca ABŞ-ı da öz yanına çəkir. Onun sözlərinə görə, Ermənistan Suriyaya göndərilən hərbi heyətin fəaliyyəti ilə bağlı ABŞ-ın qəzəbinə tuş gəlib: "Suriyada erməni hərbi heyətinin Rusiya himayəsi altında fəaliyyət göstərməsi ABŞ-ın hələ də qəzəbinə yol açan məqamlardan biridir. Bu fonda Donald Tramp administrasiyası təhlükəsizliyə yardım məqsədilə Azərbaycana ayrılan yardımı nəzərəçarpacaq dərəcədə artırıb. 2018-2019-cu maliyyə ili ərzində Azərbaycana edilən yardımın həcmi 100 milyon dollardan artıq olub. Gələn il bu məbləğ bir qədər də arta bilər. Əvəzində isə Ermənistana bu istiqamətdə yardımlar azalır. ABŞ Ermənistan hakimiyyətinin siyasəti ilə barışmır və Azərbaycan da bundan istifadə edərək Vaşinqtonla da münasibətlərini gücləndirir. Təbii ki, əsas məqsəd də Qarabağ məsələsində ABŞ-dan daha çox dəstək almaqdır".

Ermənistanın "armenianreport.am" saytı isə yazır ki, Rusiyadan sonra Azərbaycana ABŞ tərəfindən də dəstək artsa, Qarabağ məsələsində İrəvan çox çətin duruma düşəcək: "İnqilabdan sonra bizi Avrasiya bataqlığına daha güclü bağladılar və kiçicik bir müqavimət göstərmədən onda batırıq. Məsələn, Avrasiya İqtisadi Birliyi və KTMT Rusiya ilə münasibətlərdə kolonializmi daha da gücləndirir. Ermənistanın Kremldən asılılığına son qoymaq şüarı ilə meydana atılan Paşinyana camaat inandı və istədiyi kresloya doğru irəliləməkdə ona dəstək oldu. Ancaq indi nə baş nazir özü, nə də ətrafı xarici siyasət vektorunu dəyişmək və Ermənistanı Qərbə yönəltmək haqda verdikləri vədi xatırlayır. Özləri özlərini bataqlığın daha da dərininə çəkirlər. Fakt kimi İrəvanda keçirilən bir iclası misal göstərmək olar. Belə ki, İrəvanda Müdafiə Nazirliyinin binasında "KTMT Parlamentlərarası Assambleyasının iclası" adlanan parazitlərin müntəzəm toplanışı keçirilir, iclasda təşkilatın üzv ölkələrindən olan deputatlar və hətta Serbiya deputatları da müşahidəçi qismində iştirak edir. Bu yığıncaqda rusları Putin Rusiyasının ən güclü siyasətçilərindən biri, gözlərinə görə "ikinci Surkov" adlandırılan Vyaçeslav Volodin təmsil edir. Yeni Rusiyanın ideologiyasına və siyasətinə böyük təsir göstərən bir insan. Rəsmi mətbuat məmnuniyyətlə bildirir ki, "iclası parlamentin spikeri Ararat Mirzoyan və Dövlət Dumasının sədri Vyaçeslav Volodin açaraq, parlamentlərarası, o cümlədən müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib". Başqa sözlə, Mirzoyan müdafiə sahəsini rəsmi mətbuatda "strateji müttəfiq" adlanan, amma reallıqda türk və azərbaycanlılar kimi ermənilərin düşməni olan ölkənin nümayəndələri ilə müzakirə edir. Eynilə, Azərbaycan rəhbərinin çəkmələrini yalamağa hazır olan KTMT heç öz üzvünü müdafiə etmək fikrində deyil. Yaxud Mirzoyan və onu bu iclasa göndərən Paşinyan düşünürlər ki, biz Azərbaycanın aprel savaşının soyuq duş olduğunu unutmuşuq. Onda onlara xatırladırıq ki, 2016-cı ilin aprelində nə Rusiyadan, nə də KTMT-dən hər hansı diplomatik və ya mənəvi dəstək aldıq.

Moskva dəfələrlə bəyan edib ki, Azərbaycana ən müasir hərbi texnikanı verməyə hazırdır. Rusiyada Azərbaycana hörmətlə yanaşılır, Ermənistanı isə saya salmırlar, çünki ermənilər Moskvadan asılı vəziyyətdədir. İrəvandakı yuxarıda barəsində bəhs edilən iclas kimi gicbəsər hadisələr rusları yalnız gücləndirir. Və Paşinyan özü siyasəti ilə Kremlə həqiqətən heç yerə getməyəcəyini sübut edir. Cəmi bir il yarımdan sonra Qərb "inqilab lideri"ndə Kremlin növbəti itaətkar kuklasını görərək bundan tamamilə məyus olub. Bu səbəbdən ABŞ-ın Ermənistana mövcud münasibətində Vaşinqtonu günahlandırmaq çətin məsələdir. Rus diqtəsindən əsl bir qurtuluş istəyirik və bunun üçün ilk növbədə onu qoruyan qurumları - KTMT və AİB-ni tərk etmək lazımdır, bu üzvlük bizə yaxşı bir şey verməyib. Volodinin başçılıq etdiyi parazitlərin iclası bir sübutdur ki, inqilab aşiqi artıq rusların əlində itaətkar bir alətə çevrilib. Lakin maraqlıdır ki, bunun əvəzində Rusiya yenə Ermənistana yuxarıdan aşağı baxır. Azərbaycana isə, qeyd olunduğu kimi, hörmətlə yanaşılır. Bunların əvəzində Qərbdən də dəstək görmürük. ABŞ kimi nəhəng üçün Azərbaycan, Türkiyə ilə əməkdaşlıq prioritetdir. Bakı bütün bunlardan istifadə edib daha çox beynəlxalq dəstək almağa çalışır ki, Qarabağ münaqişəsini istədiyi çərçivdə daha tez həll edə bilsin".

Erməni mediasında bu qeyd edilənlərdən bir daha bəlli olur ki, İrəvan bu gün nə ABŞ-da, nə də Rusiyada hörmətlə qarşılanır. Əksinə, ona sadəcə bir vasitə, alət kimi yanaşılır. Belə vəziyyətdə böyük dövlətlərin diqqətini Azərbaycan üzərində cəmləməsi isə, təbii ki, Qarabağ münaqişəsinin çözümündə də mühüm yeniliklərə yol aça bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənipərəst Zatulindən Azərbaycan-Rusiya dostluğuna yeni təxribat - Rusiya Qəbələ RLS-in müddətinin uzadılmasını rəsmən xahiş etməyib...

**Azərbaycan KTMT üzvü olmadan silahları bazar qiymətlərinə alır, KTMT üzvü olan Ermənistan isə bunu faktiki olaraq pulsuz əldə edir. Bu fikirləri "Azadlıq" radiosunun erməni bölməsinə müsahibəsində Rusiya Dumasının deputatı Konstantin Zatulin səsləndirib.**



## *İbrahim Rüstəmli: "Zatulinin Qəbələ RLS-lə bağlı dedikləri tamamilə yalandır"*

Azərbaycanın Rusiyadan daha çox silah alması, nəticədə balansın pozulmasıyla bağlı suala cavabında Zatulin Rusiyanın bunun üçün addımlar atdığını deyib.

Bununla belə, Zatulin Qəbələ RLS-lə bağlı bəzi həqiqətə uyğun olmayan fikirlər səsləndirib: "Siz bilirsiniz ki, Rusiya və Ermənistan arasında qırıcı tədarükü barədə yeni razılaşma var, üstəlik, Ermənistandakı Rusiya hərbi bazasının gücləndirilməsi də gündəmdədir. Siz onu da bilirsiniz ki, Azərbaycan ərazisində bizim heç bir bazamız yoxdur. Qəbələ RLS ilə bağlı müqaviləni uzatmaq istədikdə isə, faktiki olaraq, bizə rədd cavabı verildi və ona görə də biz onu öz ərazimizdə tikməyə məcbur olduq. Sözsüz ki, mən Ermənistan və Azərbaycanın Rusiyanın tərəfdaşı kimi statusunda fərq görürəm. Mən Azərbaycanla münasibətlərimizin yaxşı olmasının tərəfdarıyam və ümid edirəm ki, bu, Ermənistanın xeyrinə olacaq, Azərbaycanı düşünülməmiş addımlar atmasından çəkindirəcək".

Zatulinin ermənipərəst mövqedən çıxış etməsi heç kəsə sirr deyil. Ancaq elə məsələlər var ki, Zatulin açıq-aşkar yalan danışır.

**Məsələ ondadır ki, Rusiya Qəbələ RLS-lə bağlı müqaviləni uzatmaq marağında olmayıb. Öz ərazisində daha müasir RLS inşa edib. 2012-ci ildə Qəbələ RLS fəaliyyətini dayandırıb. Ondan əvvəl artıq Rusiyada bunun daha müasir analoqu olan stansiya tikilmişdi. O baxımdan, Zatulinin bu fikirlərini ekspertlər necə şərh edirlər?**

*"Həm rentabellik, həm də digər məqamlar baxımından Rusiya RLS-in fəaliyyətinin davam etdirilməsində maraqlı deyildi"*

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, Zatulinin Qəbələ RLS-lə bağlı dedikləri tamamilə yalandır: "O zaman nə Rusiya, nə də Azərbaycan Qəbələ RLS-in fəaliyyətinin davam etdirilməsində maraqlı deyildi. Həm rentabellik, həm də digər məqamlar baxımından Rusiya RLS-in fəaliyyətinin davam etdirilməsində maraqlı deyildi. RLS müasir tələblərə cavab vermirdi. Çünki müasir elmi-texniki inkişafın ümumi fonunda sözügedən RLS həqiqətən də köhnəlmişdi. Bu səbəbdən imkanları yetərincə deyildi.

Rusiyanın özündə Qəbələ RLS-dən 10 dəfə güclü analoji fəaliyyətə malik müxtəlif stansiyalar fəaliyyət göstərir. Ona görə də deyilənlər həqiqəti əks etdirmir. Zatulin bu cür təxribat xarakterli fikirlər səsləndirməklə Azərbaycan-Rusiya münasibətlərini pozmaq istəyir. Zatulin erməni lobbisinin maraqlarından çıxış etdiyi üçün belə yalanlar uydurur. Onun Ermənistana olan rəğbəti hər zaman özünü göstərib. O üzdən, bu deyilənlər Zatulinin növbəti təxribatıdır".

***Vidadi ORDAHALLI***

# Demokratiya beşiyi sayılan Fransada müsəlmanların təzyiq altında yaşadıqları rəy sorğusu ilə təsdiqləndi...

**Özünü demokratik və tolerant ölkə hesab edən Fransada, əslində, milli, dini və irqi zəmində kəskin ayrıseçkiliklər müşahidə edilməkdədir. Bu ölkədə xüsusən də müsəlmanlara qarşı xoşagəlməz münasibətin olduğu üzə çıxıb.**



## *Azər Həsrət: "Fransa hakimiyyəti burada yaşayan müsəlman icmasının öz milli, dini kimliyini qorumasına, təbliğ etməsinə, yaşatmasına tolerantlıqla yanaşa bilmir"*

Fransanın İctimai Rəy İnstitutunun (İFOP) ölkə əhalisi arasında keçirdiyi sorğuya əsasən, bu ölkədə müsəlmanlar dini, milli, irqi ayrıseçkiliyə məruz qalırlar. Sorğunun elan edilən nəticələrinə görə, Fransada hər 10 müsəlmandan 4-ü irqi və dini ayrıseçkiliyə məruz qalıb.

Qeyd edilib ki, Fransadakı müsəlmanların 42 faizi həyatlarında bir dəfə də olsa mənsub olduqları dinə görə ayrıseçkiliyin qurbanı olublar. Onların 28 faizi polis nəzarəti zamanı, 24 faizi iş, 22 faizi isə mənzil axtarışı zamanı ayrıseçkiliklə üzləşiblər.

Sorğuya əsasən, Fransada yaşayan hər 4 müsəlmandan biri verbal zorakılığa, yaxud təhqirə məruz qalıb. Müsəlman olmayan əhali arasında isə bu rəqəm 9 faizə bərabər olub. Fiziki zorakılıq halları isə müsəlman olmayan əhaliyə qarşı 3 faiz, müsəlmanlara qarşı isə 7 faiz olub.

Bildirilib ki, Fransada yaşayan müsəlman qadınlar kişilərə nisbətən daha artıq ayrıseçkilik halları ilə qarşılaşıblar. Belə ki, qadınların 45 faizi, kişilərin isə 35 faizi ayrıseçkilik qurbanı olub. Başını örtən müsəlman qadınların isə 60 faizi həyatlarında bir dəfə də olsa ayrıseçkiliyə məruz qaldıqlarını, 37 faizi isə təhqir olunduqlarını bildiriblər.

Tanınmış ekspert Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, müsəlmanlara qarşı ayrıseçkilik Fransa cəmiyyətinə xas olan xüsusiyyətdir. A.Həsrətin sözlərinə görə, Fransa o dövlətdir ki, tarix boyu burada qeyri-fransızlara və qeyri-xristianlara qarşı ayrıseçkilik prinsipləri ilə yanaşılıb. "Fransa tarix uzunu işğalçılıqla məşğul olub və xüsusən də Şimali Afrikada bu və ya digər şəkildə soyqırımlar törədib. Eyni zamanda, həmin ölkələrin əhalisini gətirərək Avropada qul kimi işlədiblər, onlara vəhşi heyvan münasibəti bəsləyiblər, onları ayrıseçkiliyə məruz qoyublar. Təbii ki, belə bir ölkədə başqa dindən olan insanlara münasibət yüksək səviyyədə ola bilməz. Ümumiyyətlə, fransızlarda belə bir fikir var ki, onlar hamıdan üstündür, başqa xalqlar ikinci dərəcəlidir. Bu baxımdan, Fransada müsəlmanlara da münasibət yüksək səviyyədə deyil. Müsəlmanlara qarşı dözümsüzlük də fransızların özlərini başqa xalqlardan üstün tutmasından qaynaqlanır. Fransanın özündə bir neçə müsəlman icması var və bu icmanın nümayəndələri də sözsüz ki, fransız mədəniyyətini mənimsəyiblər, Fransanın qayda-qanunları ilə yaşamaqla bərabər, həm də öz etnik, dini mədəniyyərlərini də qoruyub saxlamağa üstünlük verirlər. Fransa hakimiyyəti isə burada yaşayan müsəlman icmasının öz milli, dini kimliyini qorumasına, təbliğ etməsinə, yaşatmasına tolerantlıqla yanaşa bilmir, dözümlülük göstərmir. Fransanın radikal dinçi və millətçi kəsimləri də müsəlmanların bu davranışını həzm edə bilmir, müsəlmanlardan tələb edirlər ki, onlar, ümumiyyətlə, öz dillərindən imtina etsinlər. Burada yaşayan müsəlmanlara "siz din, dil və adət-ənənə baxımından fransızlar kimi olmalısınız" deyə basqı göstərilir. Heç şübhəsiz ki, Fransada müsəlmanlara qarşı milli, dini və irqi ayrıseçkiliyin olması multikulturalizmə, tolerantlığa, birgəyaşayış qaydalarına, insan azadlığı prinsiplərinə ziddir. Ona görə də bu ölkədə müsəlmanlara qarşı belə dözümsüzlük var".

*"...Fransa kimi dövlətdə müsəlmanlara qarşı bu şəkildə ayrıseçkilik var, bu, rəsmi sorğunun nəticəsi ilə də bir daha öz təsdiqini tapır"*

A.Həsrətin sözlərinə görə, bu dözümsüzlük də onunla nəticələnir ki, Fransanın ayrı-ayrı şəhərlərində məscidlər yandırılır, müsəlmanlar təhqir edilir, onlara qarşı hücumlar, kütləvi çıxışlar təşkil edilir.

"Fransada müsəlmanlara qarşı ayrıseçkilik edilməsi, onların ölkəni tərk etməsi və sairlə bağlı çağırışlar, müsəlmanların təqiblərə məruz qalması Azərbaycan kimi multikultural və tolerant ölkədə təəccüblə qarşılanır. Bu bizim vətəndaşları ciddi narahat edən məsələdir. Bizim ölkədə başqa dinlərdən olan insanlara qarşı hər hansı dini, milli və irqi ayrıseçkilik yoxdur, amma özünü demokratiyanın "beşiyi" sayan Fransa kimi dövlətdə müsəlmanlara qarşı bu şəkildə ayrıseçkilik var, bu, rəsmi sorğunun nəticəsi ilə də bir daha öz təsdiqini tapır" - deyə A.Həsrət bildirdi.

***İradə SARIYEVA***

# 42 Çin yük vaqonu Azərbaycan üzərindən Avropaya çatdı - ildə azı 21 trilyon dollarlıq yükün qazancına sahib olacağıq...

**Son dövrlərdə Azərbaycan və Çin arasında iqtisadi müstəvidə əlaqələrin daha dinamik xarakter alması müşahidə olunmaqdadır. Hazırda hər iki tərəf bu istiqamətdə münasibətlərin daha da dərinləşməsi məqsədilə fəaliyyətlərini genişləndirir.**

Bu mənada, Şanxayda keçirilən ikinci Hongqiao Beynəlxalq İqtisadi Forumunda Azərbaycan-Çin iqtisadi əlaqələrinin xüsusi diqqət mərkəzində yer alması təsadüf sayılmır.

Müzakirələrdən bir daha bəlli olub ki, hər iki ölkə iqtisadi əlaqələrin daha da genişlənməsində xüsusi maraqlı tərəf qismində çıxış edir. Bu fonda diqqət həm də ona yönəlir ki, Çin özünün "Bir kəmər, bir yol" təşəbbüsü ilə qlobal iqtisadi inkişafda yeni bir addım atıb. Azərbaycan da bu təşəbbüsün fəal iştirakçılarındandır. Xatırladaq ki, Azərbaycan və Çin İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair anlaşma memorandumu imzalayıb. Buna qədər isə, coğrafi mövqeyindən bəhrələnərək, Azərbaycan Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırıb. Ölkəni qonşuları ilə birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaradılıb. Orta dəhliz adlandırılan və 2017-ci ildə istifadəyə verilən Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xətti isə bu mənada təkcə 3 ölkəni birləşdirən regional layihə deyil, o eyni zamanda, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu həm də "Şərq-Qərb" nəqliyyat dəhlizinin mühüm hissəsidir.




Burada bir məsələni də xatırladaq ki, Çinin elan etdiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyası həm də Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa malgöndərmələr üçün ticarət dəhlizinin yaradılmasını nəzərdə tutur. Bu fonda Bakı-Tiflis-Qars dəmir yolunu İpək Yolu iqtisadi kəmərinin tərkib hissəsi kimi nəzərdən keçirsək, onun başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. Yəni bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır. Yeri gəlmişkən qeyd edək ki, Çin məhsullarının Avropaya ixracında bundan sonra Azərbaycan ərazisindən daha geniş şəkildə istifadə etmək qərarına gəlib. Söhbət ondan gedir ki, Çinin ilk yük qatarı məhz Bakı-Tiflis-Qars dəmir yolu ilə Avropaya yola salınıb. Çinin Sian şəhərindən yola düşən və Bakı-Tiflis-Qarsla Ankaraya çatan "China Railway Express" yük qatarı artıq Türkiyədən Avropaya yola salınıb. 42 konteynerdən ibarət "China Railway Express" blok qatarı İstanbul boğazından keçməklə polad magistrallar üzərində Avropaya hərəkət edən ilk yük qatarıdır.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan xatırladır ki, Avropa ilə Asiya arasında illik ticarət dövriyyəsi 21 trilyon dollardır. İndi bu ticarətdə daşımaların artıq müəyyən hissəsinin məhz Bakı-Tiflis-Qarsla reallaşdırılmasına başlanır. Onun sözlərinə görə, Bakı-Tiflis-Qars yükdaşımada bu mənada yeni mərhələnin əsasını qoyub.

Xatırladaq ki, Çin "Bir kəmər, bir yol" strategiyası ilə özünün dəmir yolu əlaqələrini sürətlə şaxələndirir. Bu strategiya Çin, Asiya, Yaxın Şərq və Avropanı bir-birinə birləşdirən böyük bir nəqliyyat, investisiya, enerji və ticarət şəbəkəsini formalaşdırmağı hədəfləyir. Çinin 2013-cü ildə irəli sürdüyü bu strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir. Hər iki istiqamət Azərbaycan üzərindən keçir və ölkəmizə yükdaşımalardan böyük mənfəət qazandırır.

İndilikdə isə Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən Bakı-Tiflis-Qars regionda Azərbaycanın çox əhəmiyyətli təsir amili olmaqla, onu tranzit daşımalar mərkəzinə çevirir. Burada onu da xatırladaq ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının da istfiadəyə verilməsi onun sözügedən dəmir yolu xətti üçün birbaşa yüktoplama məntəqəsinə çevrilməsinə gətirib çıxarıb. Belə ki, bu liman şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanmasını, onların Bakı-Tiflis-Qars üzrə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınmasını təmin edən mühüm logistika mərkəzi kimi çıxış edir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən liman ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Limanın yükaşırma qabiliyyəti ildə 15 milyon tona, o cümlədən 100 min konteynerə bərabərdir. Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə infrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi artıq öz nəticəsini verir.

Amma təbii ki, Bakı-Tiflis-Qarsın Azərbaycan üçün əhəmiyyəti təkcə yuxarıda qeyd olunanlarla məhdudlaşmır. Məsələ burasındadır ki, bu dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində zəruri tədbirlər görülür. Xatırladaq ki, 2017-ci il dekabrında Naxçıvan-Təbriz-Tehran-Məşhəd qatarı fəaliyyətə başlayıb. Elə bundan sonra Bakı-Tiflis-Qarsın Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi aktuallaşıb. Digər tərəfdən o da məlumdur ki, ötən ildən Bakı-Tiflis-Qarsla Naxçıvana yüklərin daşınmasına başlanıb. Belə ki, bu yolla daşınan yüklər Qars şəhərində boşaldılaraq yük maşınları vasitəsilə Sədərək sərhəd-keçid məntəqəsindən keçməklə Naxçıvana aparılıb. Amma qarşıdakı dövr ərzində yolun Qarsdan Naxçıvana kimi uzadılması və qatarların birbaşa muxtar respublikanın ərazisinə daxil olması nəzərdə tutulub.

Bu məqsədlə Qars-İqdır-Aralıq-Dilucu dəmiryol xətti tikintisinin Naxçıvan istiqamətində davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Sözügedən xətt Bakı-Tiflis-Qars yolu ilə birləşdiriləndən sonra Şərqdən Qərbə tərəf bütün Türkiyə ərazisindən keçən Qars-Kapıkule xəttinə, daha sonra Avropaya doğru uzanacaq. Beləliklə, Kapıkule-Edirne-İstanbul-Eskişehir-Ankara-Yozqat-Sivas-Erzincan-Qars dəmir yolu İqdır əyalətindən keçməklə Azərbaycan və İran dəmir yollarına birləşdiriləcək. Həmin xətt də məhz Naxçıvandan keçəcək. Bununla da Bakı-Tiflis-Qars Naxçıvanın daha bir alternativ nəqliyyat dəhlizinə çıxışı demək olacaq və bu da muxtar respublika üçün mühüm strateji əhəmiyyəti olan hadisədir.

***Nahid SALAYEV***

"Hər bir insan (insan cəmiyyəti bütövlüyündə), cəmiyyətin üzvü kimi, xalqın təmsilçisi kimi fiziki bədəni ilə, orqanizmi ilə, bakteriya daşıyıcısı kimi hər hansı bir biosenozu ifadə edir".

# İbtidai hay sürüsünün şüur genefonduna vadi-səhra landşaftının təsiri...

## (IX yazı)



Rus və sovet yazıçısı-tarixçisi Lev Qumilyovun (1912-1992) "Etnos və landşaft" məqaləsi, "SSRİ Coğrafiya Cəmiyyətinin Məruzələri" toplusu, 3-cü buraxılış, səh.193-202, 1968.

"Səhranın daim din haqqında düşündürməyi onu həmişə heyrətləndirirdi..."

İngilis mənşəli ABŞ yazıçısı Frenk Herbertin (1920-1986) "Allah-Imperator, dyunlar" əsərindən. Şərqi Afrika mağaralarından yayla, çay vadisi və quru səhra landşaftına paylanmış ibtidai protohay sürüsünün (tiqran, tiqr, amxar, tiqrau... qəbilə dəstəsi) şüur, düşüncə etnogenezisinin formalaşmasında təbii landşaft elementlərindən asılılığı ümumilikdə onların ibtidai insan sürüsü halında, qəbilə-tayfa formasında Həbəşistan dağlıq yaylasının, Nil çayının yuxarı hövzəsinin və Qırmızı dənizin qərb hissələrinin təbii şəraitinə uyğunlaşması və formalaşması mərhələlərinin (eramızdan əvvəl VI-IV minilliklər və sonrakı dövr) elmi-nəzəri tədqiqi, hazırda Qafqaz sivilizasiyasına inteqrasiyasının mümkünsüzlüyünün tarixi köklərinin araşdırılması istiqamətində irəli sürülən mülahizələrin əsaslandırılması baxımından dünyaca məşhur (istər antik dövrə mənsub, istərsə də müasir) alimlərin, tarixçilərin, yazıçıların, səyyahların... əsərlərində kifayət qədər tutulqaclar (mülahizələr) mövcuddur.

SSRİ Coğrafiya Cəmiyyətinin Etnoqrafiya bölməsində 17 fevral 1966-cı ildə məşhur türkoloq alim L.Qumulyov tərəfindən məruzə edilən və yuxarıda adı çəkilən əsərinin girişində bu mövzuda aparılmış təsnifatın "Tarixi coğrafiya-xalqşünaslıq" başlıqlı mülahizələri, eləcə də digər sovet coğrafiyaşünası V.A.Anuçinin (1913-1984) "Literaturnaya qazeta" nəşrinin 18 fevral 1965-ci il tarixli nömrəsində dərc edilmiş "Tarix coğrafiya ilə" başlıqlı məqaləsi xüsusi maraq doğurur. Belə ki, bu müəlliflərin rəyinə görə, "insan cəmiyyətinin formalaşmasına ictimai amildən daha çox təbii elementlər təsir edir" və "insanlar təbiətin bir parçasıdır, cəmiyyət və coğrafi mühitin inkişafı qarşılıqlıdır" - mülahizələri ilə etnos şüurunun inkişaf mərhələlərində landşaft təsiri nəzərə alınan həlledici amil kimi nəzərə alınır. Və daha çox üstünlük təbii element təsirlərinə şamil edilir.

Miqrasiya məkanları üçrə ibtidai hay sürüsünün həyat tərzində Şərqi Afrika landşaftının təbii elementlərinin şüuraltı gen daşıyıcısı kimi ifadəsi formalaşaraq, onların özünüifadəetmə instinktinin dəyişməz tərkib hissəsinə çevrilib. Həbəşistan dağlıq yaylasının və Omo çayı hövzəsinin mağaralarından və rütubətli-liyanlı ekvatorial meşə cəngəlliklərindən, qəbilə-tayfa münaqişələrindən qurtulmaq hissi ilə həmin əraziləri tərk edən protohay sürüsü Şimala və Şimal-Şərqə doğru hərəkət edərək (e.ə. VI-IV minilliklərdə) Nil çayı vadisində və Nubiya səhrasında məskunlaşmaya məcbur olub. Qeyd etmək lazımdır ki, onların bir hissəsi hazırda əski təbii yerlərində qalmaqdadır. Bu yerdəyişmə ilə səhra landşaftının, quru, tropik iqlim-relyef və rütubətli vadi şəraitinin kompleks təsiri ibtidai protohay insan sürüsünün qan-gen yaddaşında, etnogenezik düşüncə və davram tərzində, ictimai cəmiyyət toplumunda (elə olsun bəşər cəmiyyətində, çünki bu sürü nümayəndələrinə istər toplum, istərsə də fərd şəklində dünyanın hər yerində rast gəlinir, bəlkə Antarktida qitəsində də) sərgilədiyi münasibətlərdə ifadə olunmaqdadır. Təbii ki, bu özünəməxsusluğun ayrı-ayrı cəhətlərinin gen daşıyıcısı kimi təbii landşaft elementlərinin təsir payının dərəcələrini ayırmaq o qədər də asan deyil. Çünki eramızdan əvvəlki minilliklərdə insanın təbiətə təsirindən çox, təbiətin insana təsiri güclü olub.

Odur ki, bu yazıda Cənubi Qafqaz regionuna ayrı-ayrı ərazilərdən keçərək uzaq və qədim Afrikadan eramızdan əvvəl III-I minilliklərdə müxtəlif regoinlara (Aralıq dənizinin ada və yarımadalarına, şərq sahillərinə, Balkan yarımadasının cənubuna...) miqrasiya edərək məskunlaşdırılan ibtidai hay sürülərinin həyat tərzinə, əski hay qəbilə-tayfa xüsusiyyətlərinin formalaşmasına Şərqi Afrikanın Nil çayı hövzəsinin rütubətli vadinin iqlim-relyef amillərinin təsiri baxımından təhlilə yer veriləcək.

Bu yerdə qeyd etmək zəruridir ki, məşhur rus və sovet zooloqu, coğrafiyaşünası, SSRİ Coğrafiya Cəmiyyətinin prezidenti, təkamül nəzəriyyəçisi, akademik L.S.Berq (1876-1950) tərəfindən 1922-1930-cu illərdə yazılmış "Təkamül nəzəriyyəsinə aid əsərlər"indəki mülahizə -"coğrafi landşaft insan orqanizminə güclü təsir edir, onu dəyişir və məcbur edir ki, müəyyən (özəl) xüsusiyyətlərə malik olsun"- sanki protohay sürüsünün şüur-gen özəlliyinə Şərqi Afrika landşaftının təsiri nəzərə alınmaqla söylənib.

Eramızdan əvvəl VI-IV minillikdə təbii landşaft amili kimi Nil çayının yuxarı hövzəsinin rütubətli və süni suvarılan əkinçilik şəraitinə uyğunlaşan ibtidai protohay sürüsü qədim əkinçilik mədəniyyətinə yiyələnən yuxarı Misir nomlarının yerli, kökənli qəbilə-tayfa üzvləri ilə qaynayıb-qarışmaqla yanaşı, həm də xüsusi instinkt-şüur daşıyıcılarına çevrilirlər.

Nil çayı hövzəsinə hayəsilli insan sürüsünün cəmləşməsi həm də asan gündəlik qida əldə etmək instinkti ilə bağlı olub. Çünki Həbəş dağlıq yaylasında təbii halda qida əldə edilməsi çətinliyini yayla ilə vadi arasındakı əlverişli təbii şəraitin olması aradan qaldıra bilərdi. Belə ki, qədim yunan tarixçisi Herodot (e.ə. 484-425) yazırdı ki, Həbəş dağlıq yaylasının qar və daimi buz örtüyünün əriməsi Nil çayında daşınqınlara, ətraf yerlərinin münbil lil çökünütüləri ilə örtülməsinə, balıq və köçəri quş sürülərinin artmasına səbəb olur. Nəticədə, qonşu məkanların (Həbəş və Sudan ərazilərinin) qəbilə-tayfa dəstələrinin Yuxarı Nil hövzəsinə köç etməsi e.ə. VI-IV minilliklərdə intensiv xarakter alıb (Nil çayı ilə Sudan arasında). Təsadüfi deyil ki, Misir və Qərbi Avropa arxeoloqları sübut ediblər ki, e.ə. VIII minillikdə Misirin cənub-qərbində suvarma əkinçiliyi ilə məşğul olan sıx məskunlaşmış insan məskənləri salınıb. Daha sonra, e.ə. VI minillikdə qədim Misirin cənub-şərq hissəsində heyvandarlıq təsərrüfatları saxlayan qəbilə-tayfaların sayı üstünlük təşkil edirdi.

Həbəş dağlıq yaylasından (eləcə də Omo çayı hövzəsindən) Nil çayı badisinə hərəkət edən hay mənşəli ibtidai insan sürülərinin etnopsixoloji və etno-genetik şüurunda təbii landşaft-iqlim elementlərinin təsiri üç istiqamətdə olub:

- protohay qəbilə-tayfa ünsürlərinin instinkt duyğu, hissetmə, anlama qabiliyyətinin iqlim-relyef amillərinin fəsli-dövrü dəyişikliyinə uyğunlaşması;

- hayəsilli qəbilə üzvlərinin şüur-həyat tərzinin formalaşmasına yerli tayfa-qəbilə toplumunun təsiri ilə müəyyən instinktlərin formalaşması;

- ibtidai hay sürüsündən muzdlu qüvvələr kimi yerli qəbilə-tayfalar və hakim qüvvələr tərəfindən geniş istifadə olunması (sonrakı minilliklərdə bu muzdlu qüvvələr həbəş-yunan-yəhudi koloniyalarında muzdlu-döyüşçü dəstələri kimi də istifadə olunub).

Göründüyü kim, ibtidai hay sürüsünün Həbəş dağlıq yaylasının şərqində rütubətli mağara-meşə təbii şəraitində (yaşayış tərzində) həyat üçün təhlükəlu-qorxunc şəraitdən doğan psixiki-şüur gen kompleksinin (vəhşi heyvanların hücumu, hərəkət istiqamətinin məhdudluğu, qəbilə-tayfa münasibətlərinin kəskinləşməsi...) üzvi hissələrinin (ətraf mühitlə barışmazlıq, qida çatışmazlığının və məkan çətinliyinin aqressiv ifadə tərzinə çevrilməsi, şüur-gen kompleksliyinin digər insan birliklərinə qarşı təcavüz halında yönləndirilməsi, təbii landşaftın kəskin iqlim-relyef amillərinin hay sürüsündə qonşulara qarşı qərəzli münasibətdə əks olunması...) onların davranış tərzində aparıcı xətt təşkil etməsi sonrakı minilliklərdə (e.ə. III-I minilliklərdə) daha da güclənib, yeni məzmun kəsb edərək genişlənib. Eləcə də, protohay qəbiləsinin şüurunda yaşamaq uğrunda mübarizənin kəskinliyi (iqlim-landşaft asılılığı) onların şüuraltı kod köklərinə də siyarət edib (yadlara barbarcasına patoloji nifrət duyğusu ilə).

Bu hal Nil çayının yuxarı hövzəsində, rütubətli çay vadisi, suvarılan əkinçilik mühiti, yarğan-qobu və səhra landşaft kompleksi, yerli, kökənli qəbilə-tayfa münasibətlərinin kəskinliyi (yerli qəbilələrin hay sürüsünə qarşı barışmazlıq, rsixo-patoloji nifrət hissi)... ilə sıx bağlılıq təşkil edir. Təbii ki, dominant, hakim qəbilə birlikləri tərəfindən sərt təpkilərlə və kəskin münasibətlə qarşılaşan ibtidai hay sürüsünün (ilk növbədə genetik şüur-həyat tərzinin Nil çayı hövzəsində ifadəsinin nəticəsi olaraq) şüurunda patoloji nifrət ərazidə qəbilələrarası-tayfa münaqişələrinə, silahlı hücumlara, qonşu qəbilələrin əmlakının qarət edilməsinə, qonşularına qarşı antoqonizm hissinin güclənməsinə... yol açıb və haylarda gen daşıyıcısı kimi həyat tərzinə çevrilib.

Landşaft-relyef elementlərin dövri-fəsli dəyişikliyi (quraq dövrlərin çılpaq daşlıq-səhra təbiəti, daşqın-sel hadisələrinin fəsadları, suvarma əkinçiliyi şəraiti, vadi məhsullarının çoxçeşidliyi...) həm də hay sürüsünün şüurunda maksimum, daha çoxa nail olmaq istəyinin daimi instinkt halına çevrilməsinə səbəb olub.

İlk növbədə hay sürüsünün şüur genezisinin formalaşmasını 5-6 min illik tarixi dövr ərzində mərhələli təhlil etdikdə, əsasən Həbəş dağlıq yaylasının və Nil çayı hövzəsinin təsiri əsas götürülür. Çünki ibtidai hay sürüsünün psixiki-şüur təbiətinin əsas (özəl) göstəricisi olan patoloji nifrət, barışmazlıq, qarət və güclülərə yarınmaq (həmin dövrlərdə onlar dahaçox silahlılar və kahinlər tərəfindən vuruşmuşlar) hissinin maksimalizmi (müəyyən məqsədə çatmaq üçün növ tərkibindən asılı olmayaraq) məhz bu ilkin coğrafi məkanların landşaft xüsusiyyətləri ilə bağlı olub.

Nil çayının münbit və məhsuldar əkin sahələrinin hüdudlarına bitişik vadi-səhra landşaftı (Böyük Səhranın şərq və Nubiya səhrasının qərb hissələrində) protohay sürüsündə ətraf mühitə qarşı davamlı dözümsüzlük instinktinin qonşu və minilliklər boyunca həmin ərazilərdə məskunlaşmış kökənli qəbilə-tayfa üzvləri ilə barışmazlıq münasibətinin, fəsli-dövri iqlim dəyişkənliyi (susuzluğun, aclığın, qida çatımazlığının müşayəti ilə) onlarda qarət-zəbt hissinin güclənməsinə səbəb olub. Bu kimi hallar hayəsilli ibtidai insan sürüsünün şüurunda, psixoloji durumunda daimi olaraq ərazi-coğrafi məkan instinktinin formalaşması ilə nəticələnib.

Hövzə vadisinin isti iqlim şəraiti və səhra örtüyünə bitişik olan Yuxarı Nilin lil çöküntüləri ilə örtülü subasar əraziləri hay sürüsünün assimilyasiyası üçün o qədər də çətin lanşaft forması olmadığından və suvarıln əkin sahələrinin məhsuldarlığı onların yemlə təmin olunmaları üçün əsas olduğundan çay-vadi məskunlaşması onlar üçün bir neçə min il davam edib (təqribən III-II minilliklər ərzində). Sonralar bu coğrafi məkanlar Yuxarı Misirin Fatiri-Diospol, Eyletiaspol, Qermontis, Kopt, Ombos, Patopol, Panopol... nomlarının (inzibati-dövlət vilayətlərinin) tərkib hissələrinə aid edilib.

Nil çayı vadisi ilə Qırmızı dəniz arasındakı suvarılan torpaqlarda əkinçiliklə məşğul olan prothay sürülərinin regional ərazi üzrə paylanmasının təbii, sosial-iqtisadi və siyasi-hərbi, eləcə də dini amillərlə bağlılığı da onların şüurunda və etnogenezisində həlledici iz buraxıb. Çünki, vadi-səhra coğrafi məkanında yerləşən digər muzdlu qəbilə-tayfa birlikləri kimi protohay ibtidai sürüsü barədə də Yuxarı Misir və yəhudi kahinlərinin, döyüşçülərinin kifayət qədər məlumatları var idi. Nəticədə, artıq II-I minilliklərdə bu muzdlu qüvvələrdən Nil vadisinin əkin yerlərində, Nubiya səhrasının mədənlərində, eləcə də ehramların tikintisində və xarici hərbi yürüşlərdə hay sürüsü də iştirak etməyə başlayıb. Bu amilin özü də hay şüurunun formalaşma mərhələsinin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Dünya Bankı kredit əlçatanlığına görə Azərbaycanı ilk yerə qoydu - real sektora kredit verməyən banklara yeni işarə...

**Məlum olduğu kimi, Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında kredit alınması indikatoruna, yəni kredit əlçatanlığına görə ən yüksək nəticə əldə edərək 190 ölkə arasında ötənilki 22-ci mövqedən 1-ci yerə yüksəlib.**

*"Bütün bunlardan sonra digər hesabatlarda Azərbaycanın kredit reytinqi daha da artacaq"*

Hesabatda o da deyilir ki, Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrinin və özəl kredit bürosunun yaradılması, həmçinin, "Daşınar əmlakın yüklülüyü haqqında" Qanuna və Mülki Məcəlləyə müvafiq dəyişikliklərin, sadələşdirmələrin edilməsi bu nəticəni şərtləndirən amillərdəndir. Biznesə başlamaq göstəricisi üzrə ölkəmiz keçənilki mövqeyini təkrarlayaraq 9-cu yerdə qərarlaşıb, müqavilələrin icrası indikatoru üzrə isə 40-cı yerdən 28-ci yerədək irəliləyib.

Ancaq o da var ki, bu gün banklar istehlak kreditlərinə önəm verirlər. Azərbaycan kredit əlçatanlığına görə birinci yerdə olsa da, bu, praktiki olaraq, istehlak kreditləri ilə daha çox bağlıdır. Reallıq ondan ibarətdir ki, banklar müxtəlif bəhanələrlə real sektora kredit verməkdən yayınırlar. Hansı ki, qeyri-neft sektorunun, sahibkarlıq subyektlərinin kreditə olan ehtiyacı daha böyükdür. Ancaq banklar tərəfindən verilən kreditlərin böyük hissəsini istehlak kreditləri təşkil edir. Ona görə də bu hesabat, bir növ, banklara çağırış olmalıdır ki, real sektora kredit verməl追ini əsirgəməsinlər. Banklar real sektora kredit versə, o zaman kredit əlçatanlığı ilə bağlı digər hesabatlarda da Azərbaycan ön mövqedə qərarlaşacaq.

Maraqlıdır, ekspertlər buna necə yanaşırlar? Yəni banklar real sektora kredit versə, bu, Azərbaycanın digər hesabatlarda daha yüksək nəticələr əldə etməsinə təkan verə bilərmi?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisad elmləri doktoru Fikrət Yusifov bunu istisna etmədi: "Kredit əlçatanlığı göstəricisi üzrə Dünya Bankının hesabatlarında irəliləyə bilməmiz yaxş hal olsa da, biz iqtisadiyyatımızın banklar tərəfindən kreditləşdirilməsi məsələsində yəqin ki, dünyada ən axırıncı yerlərdən birini tutarıq. Çünki bizim bank sektoru yalnız bahalı istehlak kreditləri verməklə məşğuldur. Bu isə bank sektorunun normal fəaliyyətinə ciddi zərbə vurur və onun getdikcə iqtisadiyyatdan uzaqlaşmasına gətirib çıxarır. Son bir neçə ildə 11 bank bağlandı və bir çox bankın maliyyə durumu da ürəkaçan deyil. Bu səbəbdən bizə banklarımızı normal fəaliyyətə yönləndirə biləcək addımlar atmaq lazımdır. Fikrimcə, bunun üçün xarici bankların sərbəst şəkildə Azərbaycanın bank bazarına gəlməsinə şərait yaratmaq lazımdır.

Belə olarsa, həm iqtisadiyyatımız milyardlarla dollar vəsait əldə etmiş olar və həm də bizim banklar nəhayət ki, iqtisadiyyatı kreditləşdirmək vərdişlərinə sahib olmağa başlayarlar. Bütün bunlardan sonra digər hesabatlarda Azərbaycanın kredit reytinqi daha da artacaq".

**Fikrət Yusifov:** *"Kredit əlçatanlığı göstəricisi üzrə Dünya Bankının hesabatlarında irəliləyə bilməmiz yaxşı hal olsa da..."*




***Vidadi ORDAHALLI***

---

# Azərbaycanın dəniz limanları dünyada birinci oldu - yüksək reytinqin əsasları...

**Xəbər verildiyi kimi, Azərbaycanın dəniz limanlarında xidmətlərin səmərəliliyi indeksi 68,6-ə yüksəlib ki, bu göstəriciyə görə Azərbaycan Dünya İqtisadi Forumunun dərc etdiyi siyahıda 141 ölkə arasında 25-ci yerdə qərarlaşıb.**

*"Son illər Azərbaycanın liman infrastrukturu müəyyən irəliləyişlərə nail olub"*

Bu barədə Dünya İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi "Qlobal Rəqabətlilik Hesabatı"nda deyilir. Hesabata görə, Azərbaycan sözügedən göstərici üzrə Kanada (68,4), İrlandiya (66,7), Yeni Zelandiya (65,6), Portuqaliya (64,6) və bu kimi dənizçiliyi inkişaf etmiş ölkələri qabaqlayıb. Qeyd edək ki, "Dəniz limanları xidmətlərinin səmərəliliyi" göstəricisində 25-ci yer tutaraq MDB ölkələri arasında lider olub.

Onu da bildirək ki, səmərəlilik indeksi dəniz limanlarında təklif olunan xidmətlərin tezliyini, dəqiqliyini, sürətini və dəyərini qiymətləndirir.

Dəniz limanlarında xidmətlərin səmərəliliyinin inkişaf etməsi barədə fikir bildirən Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisadçı-ekspert Elşad Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son illər Azərbaycanın liman infrastrukturu müəyyən irəliləyişlərə nail olub: "Həmin irəliləyişlər əsasən dövlət investisiyaları ilə bağlıdır. Dəniz limanında qeydə alınan inkişaf beynəlxalq hesabatlarda da öz əksini tapır".

İqtisadçının sözlərinə görə, yaxın ölkələrlə müqayisədə Azərbaycanın dəniz nəqliyyatına əsaslı kapital qoyuluşları artıb. Eyni zamanda, bazar iqtisadiyyatı sistemindən söhbət gedirsə, nəqliyyat sektoruna özəl investisiyaların ön plana çıxmasına da tələbat var.

Həmsöhbətimiz qeyd etdi ki, hazırda Azərbaycanın dəniz nəqliyyatı inkişaf dövrünü yaşayır. Bu inkişaf beynəlxalq təşkilatların, xarici media orqanlarının diqqətindən yayınmır. Professor hesab edir ki, dəniz nəqliyyatı ilə yanaşı, hava nəqliyyatı da inkişaf etməkdədir.

Onun fikrincə, beynəlxalq səviyyədə rəqabət qabiliyyətini artırmaq üçün Azərbaycan iqtisadiyyatı daha da gücləndirilməlidir: "Bunun üçün hava nəqliyyatının həm tarif, həm də marketinq siyasətini inkişaf etdirmək lazımdır. Nəzərə almaq lazımdır ki, Azərbaycanın dəniz və hava nəqliyyatı sahəsində böyük inkişaf potensialı var".

**Elşad Məmmədov:** *"Hazırda Azərbaycanın dəniz nəqliyyatı inkişaf dövrünü yaşayır"*



***Günel CƏLİLOVA***

# Universitetlərdə kafedraların sayca azaldılmasının səbəbləri və mümkün nəticələr...

**Son dövrlər Azərbaycanın bir sıra ali məktəblərində islahatlar həyata keçirilməyə başlayıb. İslahatlar çərçivəsində bəzi universitetlərdə kafedraların sayı azaldılıb. Bildirək ki, uzun müddətdir ali məktəblərdə bəzi kafedraların bağlanacağı, yeni ixtisaslar üzrə isə bəzi kafedraların açılacağı barədə fikirlər bildirilirdi.**



Ekspertlər hesab edirlər ki, kafedraların sayının azaldılması təhsilin keyfiyyətinə hər hansı bir zərər vurmayacaq.

Qeyd edək ki, Azərbaycan Texniki Universitetində də (AzTU) kafedraların sayı azaldılıb. Bu barədə AzTU-nun Elmi Şurasının iclasında qərar qəbul olunub. Bu ali təhsil müəssisəsində elmi-tədqiqat işlərinin yeni istiqamətlərinə və fakültələrin yenidən təşkilinə uyğun olaraq, bir sıra kafedralar ixtisar edilərək onların bazasında yeni kafedralar yaradılıb.

Elmi Şurada alternativ əsasda, gizli səsvermə yolu ilə yeni yaradılmış kafedraların müdirləri seçilib.

Bu proses digər ali məktəblərdə də həyata keçirilib.

Universitetlərdə kafedraların sayının ixtisar edilməsinin nəticələri nə olacaq?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, ali məktəblərdə kafedraların ixtisar edilməsinin əhəmiyyəti yox deyil: "Əlbəttə, ali məktəblərdə müəyyən kafedraların bağlanması, yenilərinin açılması prosesi hər zaman olub. Heç şübhəsiz ki, bu, ali təhsil müəssisələrində baş verən islahatlarla bağlıdır. Azərbaycan Texniki Universitetində bəzi kafedraların bağlanacağı haqqında bir ay əvvəldən məlumatlı idim. Biz bu ali məktəbin yeni rektoru ilə görüş zamanı bu haqda məlumat aldıq. Bildirildi ki, yeni rektor təyinatından sonra universitetin həyatında bir sıra dəyişikliklər baş verəcək. Bu universitetdə islahatlar həyata keçirilməsi ilə bağlı işlərə başlanıb. Bunun tərkib hissəsi olaraq müəyyən kafedraların ixtisara salınması prosesi baş verdi və ola bilsin yeni, müasir ixtisasları özündə ehtiva edən kafedralar da yaradılsın. Bu proses yalnız Texniki Universitetdə deyil, digər ali məktəblərdə də həyata keçirilir".

### *İlqar Orucov: "Bütün bu proseslər Azərbaycan ali təhsilinin keyfiyyətli olmasına, əmək bazarının tələblərinə cavab verən kadrlar hazırlanmasına şərait yaradır"*

*"Ali məktəblərimizdə aktual olmayan, müasir tələbləri ödəməyən, bəzi köhnə ixtisaslar üzrə kafedralar..."*

İ.Orucovun sözlərinə görə, bu gün Azərbaycanda əsas prioritet ali məktəblərdə təhsilin səviyyəsinin artırılması, ali məktəblərimizin dünya standartlarına cavab verməsi istiqamətində çox ciddi işlər görülməkdədir. Bunun nəticəsidir ki, artıq Texniki Universitetdə və digər universitetlərdə bu cür islahatlar həyata keçirilir. Bu gün ali məktəblərin rəhbərləri, eləcə də müəllim və professor heyəti çox istəyir ki, ali məktəblərin səviyyəsi yüksəlsin. Ali məktəblərdə aparılan islahatlar ona hədəflənib ki, Azərbaycanın ali təhsil müəssisələri müasir tələblərə cavab versinlər. Orada təhsil alan tələbələr keyfiyyətli təhsillə təmin olunmalıdırlar ki, onlar bakalavr pilləsini bitirdikdən sonra özlərinə əmək bazarında iş tapa bilsinlər.

Açığını deyim, ali məktəblərimizdə aktual olmayan, müasir tələbləri ödəməyən, bəzi köhnə ixtisaslar üzrə kafedralar da vardı ki, bu kafedraların bu gün fəaliyyətinə tələbat və ehtiyac yox idi. Yaxud universitetlərimizdə bir-birinə oxşar, bir-birinin fəaliyyətini təkrarlayan kafedralar da vardı ki, onlar da artıq birləşdirilib. Bütün bu proseslər Azərbaycan ali təhsilinin keyfiyyətli olmasına, əmək bazarının tələblərinə cavab verən kadrlar hazırlanmasına şərait yaradır. Nəticə etibarilə bəzi kafedraların bağlanması ali məktəblərə zərər vermir, əksinə, xeyir gətirir. Ali məktəblərdə bu kimi islahatların aparılması təqdirəlayiqdir" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# Bakı-Sumqayıt yolu təmir üçün bağlansa, alternativ olacaqmı?

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olarkən daha bir mühüm problemin həlli ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova göstəriş verib.**



Prezident uzun illərdir tıxac problemi ilə üzləşən Bakı-Sumqayıt magistral yolundan danışıb: "Mənə məlumat verilir ki, Bakı-Sumqayıt yolunda tez-tez tıxaclar olur. Baxmayaraq ki, indi qatar da işləyir və vətəndaşların bir hissəsi qatardan istifadə edir, yenə də tıxaclar var. Ona görə baxın, bu yolu genişləndirmək üçün texniki imkan olmalıdır, layihə hazırlayın. Biz o yolu genişləndirməliyik, lazımi vəsait ayırarıq".

Qeyd edək ki, Bakı-Sumqayıt yolu ölkənin ən işlək yollarından biridir. Həmin yol təmirə dayanarsa, nəqliyyatın hərəkətinin iflic olmaması üçün alternativ yol varmı? Varsa, həmin yol gün ərzində qeyd olunan istiqamət üzrə hərəkət edən nəqliyyat vasitələrinə tab gətirə bilərmi?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli təklif edir ki, alternativ yol kimi metro xətti çəkilsin: "Tıxac əsas olaraq "Şamaxinka" deyilən ərazidən başlayaraq Bakı Mühəndislər Universitetinə qədər davam edir. Amma ən problemli bölgə ekologiya postuna qədər olan hissədir. Genişləndirmə işlərinin burada aparılması daha məqsədəuyğun hesab edilir. Həmin ərazidə iki tunel var, biri Xırdalan dairəsində, digəri isə "Şamaxinka" tərəfdən Bakıya gələn yoldadır. Tıxaclar əsasən bu istiqamətdə olan yollarda müşahidə edilir. Hesab edirəm ki, Xırdalan dairəsində genişləndirmə işlərinin aparılması mümkündür. Əslində, həmin yol əvvəldən daha geniş inşa edilsəydi, bu gün belə problemlə rastlaşmadıq. Tunellərdə genişləndirmə işləri edilsə və ya alternativ yerüstü nəqliyyat xətti çəkilsə, tıxaclar azalar. Həmin ərazidə yerləşən ekologiya postunun yerinin dəyişdirilməsi də mümkündür. Postun yerinin dəyişdirilməsi də nəqliyyatın intensivliyindəki problemi qismən aradan qaldırar. Düşünürəm ki, metro tikintisi də bu istiqamətdə olan tıxacların həllinə kömək edər. Belə ki, fərqi yoxdur, istər yerüstü, istər yeraltı metro xəttinin çəkilişi alternativ yol sayıla bilər. Çox yaxşı olar ki, metronun "Avtovağzal" stansiyasından Xırdalana, Xırdalandan Masazır, Saray və Sumqayıt ərazilərinə xətt çəkilsin".

### *İlqar Hüseynli: "Alternativ yol kimi metro xətti çəkilməlidir"*

### *Rauf Ağamirzəyev: "Paytaxtın Abşeron yarımadasında yerləşməsi və qərb hissəsinin dağlıq relyef olması alternativ yolların çəkilməsi imkanlarını məhdudlaşdırıb"*

Nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev bildirdi ki, bu gün Bakı-Sumqayıt istiqamətində görüləcək ən kiçik tədbir belə yolu iflic edə bilər. Paytaxtın Abşeron yarımadasında yerləşməsi və qərb hissəsinin dağlıq relyef olması alternativ yolların çəkilməsi imkanlarını məhdudlaşdırıb: "Hava limanı-Mərdəkan-Bilgəh-Kürdəxanı yolunun tamamlanmamış 14.5 km-lik hissəsində tikintilərə davam etmək olar. Təklif edərdim ki, 2014-cü ildə yarımçıq qalan Bakı dairəvi yolu layihəsi üzrə Kürdəxanı qəsəbəsinə qədər uzanan yolun tikinti işləri bərpa etdirilsin. Kürdəxanı-Fatmayı-Novxanı-"M1" magistralı şəhərə gələn nəqliyyat axınının bir hissəsini şimal istiqamətindən şərq tərəfə yönləndirə bilər. Amma təəssüf ki, maliyyə çatışmazlığı ucbatından layihə yarımçıq qalıb. Layihəyə görə, yol Novxanı, Saray yolunun aşağı istiqamətindən uzanaraq "M1" magistral yoluna (Bakı-Sumqayıt) və oradan da Ceyranbatan gölünün cənub hissəsini keçərək "M4" magistralına (Şamaxıya gedən yol) birləşməli idi. Bu isə həm Şamaxıdan, həm də Sumqayıtdan gələn avtomobillərin "20 Yanvar" dairəsinə girmədən birbaşa hava limanına çıxması üçün alternativ yol ola bilər.

Digər tərəfdən, bu yol Sumqayıtdan və Şamaxıdan nəqliyyat axınına paralel olaraq şəhərə fərqli istiqamətdə giriş imkanı yaradır. Bu yolun bərpa olunması həm də o deməkdir ki, magistralın keçdiyi ərazilərdə Binəqədi şosesi, Binəqədi-Balaxanı yolu, Yeni ümumşəhər və Sabunçu qovşağı həmin yol ilə əlaqələndirilir. Yəni bu, alternativ xətt olaraq çox münasib variantdır.

İkinci variant isə Bakıda Böyük Şorun üzərindən salınan yeni ümumşəhər yolu ilə "Dərnəgül" metrostansiyası istiqamətində olan yolun əlaqələndirilməsidir. Təklif edirəm ki, "Dərnəgül" metrostansiyası ilə Böyük Şor yolunu əlaqələndirən dəmir yolu üzərindən körpü salınsın. Bu körpü vasitəsilə nəqliyyat vasitələri həm "Baksol" yolu ilə Binəqədi şosesinə, həm də Dərnəgül şosesi ilə yeni ümumşəhər yoluna çıxış əldə etmiş olacaq".

***Günel CƏLİLOVA***

**Son zamanlar müxtəlif kütləvi informasiya vasitələrində keyfiyyətsiz şprislərin dövriyyəyə buraxılması barədə məlumatlar yer alıb. Artıq həmin məlumatlar öz təsdiqini tapıb. Qeyd olunur ki, satışda olan saxta şprislər Çin istehsalıdır və apteklərdən ucuz qiymətə əldə etmək mümkündür.**

# Ziyanlı sayılan Çin şprislərini Bakı apteklərindən necə yox etməli...

***Adil Qeybulla:** "Satışda olan saxta şprislər dərhal yığışdırılmalıdır"*



"Diamed" şpris istehsalı zavodunun direktoru Samirə Hüseynova jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycanda keyfiyyətsiz, mənşəyi məlum olmayan şprislər satılır: "Təəssüf ki, bu gün insanlar apteкə gedib Çin istehsalı olan ucuz şprislər alırlar. Onların da mənşəyi məlum deyil. Azərbaycan istehsalı olan şprislərin iç tərəfinin uc hissəsində qara rezin olmur. Şprisin iç tərəfində qara rezin olanda həmin şprislər tam steril sayılmırlar. Yəni 3 hissədən ibarət olan şprisin bir hissəsi steril deyil. Bu isə o deməkdir ki, şpris infeksiya mənbəyi ola bilər. Bizim zavodun istehsal etdiyi şprislər ikihissəlidir. Artıq Avropanın qabaqcıl ölkələri belə üçhissəli şprislərdən istifadə etmirlər. Azərbaycana gətirilən şprislərin əksəriyyətinin xammalı tibbi materiallar, yəni tibbi polimerlər deyil. Azərbaycan istehsalı olan şprislərdə isə tibbi xammaldan istifadə olunur. Şprisin iynələri Yaponiyanın qabaqcıl "Nipro Pharma " şirkətinə məxsusdur. İynələr Azərbaycana hazır şəkildə gətirilir".

Maraqlıdır, qeyd olunan saxta şprisləri satışdan necə yığışdırmaq olar? Əczaxanalarda həmin şprislərin satışını dayandırmaq mümkündürmü?

Məsələ ilə bağlı Səhiyyə Nazirliyindən bildirildi ki, son zamanlar müxtəlif kütləvi informasiya vasitələrində keyfiyyətsiz şprislərin dövriyyəyə buraxılması barədə məlumatlar yer alıb. Analitik Ekspertiza Mərkəzinə heç bir vətəndaşdan standartlara uyğun olmayan şprislərlə bağlı şikayət daxil olmayıb: "Vətəndaşların hər hansı şikayəti yarandığı təqdirdə qurumun "qaynar xətt" nömrələrinə (012 596 07 12, 012 594 57 27, 012 594 57 37) zəng edərək, email ünvanına (aem@pharma.az) yazaraq və ya AEM-in "Bir Pəncərə" xidmətinə yaxınlaşaraq şikayətlərini bildirmələri tövsiyə olunur. Hər bir şikayət dərhal araşdırılacaq".

*"Çin istehsalı olan saxta şprislər vasitəsilə müxtəlif xəstəliklər, viruslar yayıla bilər"*

Professor, həkim-ekspert Adil Qeybulla bildirdi ki, saxta şprislər insan sağlamlığı üçün təhlükəlidir: "Bu cür şprislər vasitəsilə müxtəlif xəstəliklər, viruslar yayıla bilər. Təbii ki, keyfiyyətsiz şprislərin xəstəlik törətmə xüsusiyyətləri olduğu üçün, Səhiyyə Nazirliyi əhaliyə SOS siqnalı verib. Məlumdur ki, yaxın zamanlarda ölkəmizdə böyük şpris zavodu istifadəyə veriləcək. Nəzərə alınıb ki, bu zavodda Avropa standartlarına uyğun şpris istehsalına başlanacaq. Bu gün Azərbaycana Hindistan, Rusiya və digər ölkələrdən müxtəlif çeşidli şprislər gətirilir. Yəqin ki, müəyyən problemlər yaşanıb. Dəfələrlə şahidi olmuşuq, bir də görürsən ki, şpris deffektli və yararsız, vaxtı keçmiş olur. Təbii ki, bu çox ciddi məsələdir. Çünki insan sağlamlığı burada önəmli rol oynayır. Bu baxımdan güman edirəm ki, əhali ciddi məlumatlandırılmalıdır. Onsuz da gündəlik həyatımızda insanların əksəriyyəti iynə-dərmanda qalıb. Ona görə də diqqətli olmaq lazımdır. Şprisin buraxılış ili, son istifadə müddəti kağızda mütləq göstərilməlidir".

Həmsöhbətimiz hesab edir ki, satışda olan saxta şprislər dərhal yığışdırılmalıdır. Hansı əczaxanada keyfiyyətsiz şprisin satıldığını görən olarsa, həmin şəxs mütləq Səhiyyə Nazirliyinə müraciət etməlidir. Eyni zamanda, insanların özləri də bu məsələdə fəal olmalıdırlar. Keyfiyyətsiz şprisləri almamaqla onların dövriyyədən çıxarılmasına səbəb ola bilərlər.

*Günel CƏLİLOVA*

**Paytaxtın müxtəlif ərazilərində "Nə alırsan al, bir manat" şüarı ilə fəaliyyət göstərən mağazalar var. Həmin mağazalarda məişətdə işlənən plastmas mətbəx qabları, çörək qabı, bununla yanaşı, stəkan, nəlbəki, təmizləyici vasitələr, kosmetika, ətir, sap və digər məhsullar satılır. Mağazada satılan hər bir məhsulun qiymətinin standart 1 manat olduğu satıcılar tərəfindən iddia edilir.**

# "Nə alsanız 1 manata" - Mağazada 1 manata heç nə yoxdur... İstehlakçı hüquqlarına yeni qəsd...

***Eyyub Hüseynov:** "Nə alırsan al, bir manat" şüarı ilə fəaliyyət göstərən mağazalarda satılan məhsulların qiyməti heç də, deyildiyi kimi, 1 manat deyil"*




Həmin mağazalara daxil olarkən vitrində olan hər hansı məhsulun qiyməti ilə maraqlananda heç də standart qiymət olduğunu görmürük. Məsələn, məişətdə işlənən şüşə qabların satış qiymətinin, qeyd olunduğu kimi, 1 manat deyil, ilkin qiymətinin 10 manatdan başladığı deyilir. Satıcılar 1 manata yalnız alışqan, müxtəlif növ kosmetik məhsullar, yuyucu tozlar və plasmas qabların satıldığını deyirlər.

İlk baxışda alıcılar "necə də ucuzluqdur" deyib heyrətlənsələr də, əslində, burada da aldadıcı məqamlar var. Məsələn, bir çörək qabı da 1 manatdır, diş çöpü, şam, zibil torbası da. Halbuki, diş çöpünü digər mağazalardan 50 qəpiyə, zibil torbasını 20-30 qəpiyə, şamı isə 30 qəpiyə də almaq olar. Təbii, belə olan halda, həmin dükan sahibləri dəyəri heç 1 manat olmayan məhsulları qeyd olunan məbləğə satmaqla qazanc əldə edirlər.

Onu da qeyd edək ki, satış qiyməti 1 manata olan məhsulların keyfiyyəti isə istehlakçıları şübhələndirir. Bəs 1 manatlıq plastik məhsulun keyfiyyətinə nə dərəcədə əmin olmaq olar? Bu qablar, kosmetik vasitələr, yuyucu tozlar nədən hazırlanır, maya dəyəri nə qədərdir ki, onlar bir manata satılır?

Suallarımıza cavab tapmaq üçün "Həzi Aslanov" metrostansiyası yaxınlığında yerləşən mağazalardan birinə baş çəkdik. Elə mağazanın şüarı da "Nə alırsan al, bir manat" idi. Bu sərlövhə isə yoldan ötən insanların diqqətini cəlb etməyə bilməzdi. Mağazada satılan məhsulların, demək olar ki, əksəriyyəti Çin istehsalıdır. Bəzilərində isə nə istehsal yeri yazılıb, nə də yararlılıq müddəti... Adət etdiyimiz gözəl qoxulu kosmetik vasitələrə burada rast gəlmək mümkün deyil. Ətirlərlə tanış olmaq üçün onları açıb iylədikdə, sanki rezin iyini xatırladan qəribə bir qoxu gəlirdi. Elə bu qoxudan da məhsulun keyfiyyətsiz olduğunu anlamaq mümkündür.

Onu da bildirək ki, Türkiyə və Rusiya istehsalı olan yuyucu vasitələr, şampunlar, duş gellərinin də saxta olduğunu elə qablaşmasına baxdıqda anlamaq mümkündür. Əksər mağazalarda 5 manata satılan bir şampun necə ola bilər ki, burada 1 manata satılsın?! Etiketlərində Avropa ölkələrində istehsal edildiyi göstərilən kosmetik məhsulların çoxunun üzərindəki göstəricilər kimi, tərkibi də saxtadır. Bu məhsullar əsasən Çində istehsal edilir və Azərbaycanda etiketləşdirilir. Buna görə də bu məmulatların üzərində istehsal tarixi və yararlılıq müddəti göstərilmir.

*"Bu cür satılan qida məhsulları, parfümeriya varsa, bunlar birmənalı şəkildə vaxtı keçmiş, keyfiyyətsiz mallardır"*

Ekspertlər bildirirlər ki, alıcıları şirnikləndirmək məqsədilə paytaxtın müxtəlif ərazilərində "Nə alırsan al, bir manat" və ya "Nə alırsan al, bir-üç manat" şüarı yazılan mağazalarda əsas məqsəd istehlakçıları aldatmaqdır.

Saxta çini qabların da təhlükə mənbəyi olduğu bildirilir. Ucuz Çin qabları özündə zəhərli maddələri cəmləyib. Qabların üzərinə qeyri-sabit, səliqəsiz vurulmuş şəkil təhlükədən xəbər verə bilər. Çünki şəkil çəkildən sonra boşqablar digər istehsal prosesindən keçmir. Bunu qabların üzərindəki şəkillərin silinməsi də təsdiqləyir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov alıcıları bu cür mallardan uzaq durmağa çağırdı: "Bu cür satılan qida məhsulları, parfümeriya varsa, bunlar birmənalı şəkildə vaxtı keçmiş, keyfiyyətsiz mallardır və insan həyatı üçün təhlükəlidir. Digər qab-qacaq malları ilə bağlı bizə məlumatlar gəlmir. Yeni sənaye mallarına təhlükə o qədər də olmur. Lakin əksər hallarda sənaye malları arasında da paltarlar və sairə varsa, onlar neft tullantılarından hazırlanmış mallardır. Ağ nəm tənzifi həmin paltara sürtəndə rəngi çıxırsa, bu, artıq təhlükəlidir. Rəngin tərkibində qurğuşun var. Qurğuşun da zərərli maddədir. İnsanlar belə malları almaqdan imtina etsinlər. Lakin biznes qurumlarının öz daxili iqtisadi siyasəti ola bilər və hər cür malı bir manata sata bilər. Bütün hallarda, istehlakçılar diqqətli olsunlar. Lazım gəldikdə malın sertifikatının olub-olmadığını soruşsunlar. Satıcı onu alıcıya göstərməyə borcludur. Əgər bir manata satılan mətbəx qablarının da rəngi çıxırsa, qoxusu gəlirsə, belə mallardan uzaq olsunlar".

Həmsöhbətimiz onu da vurğuladı ki, "Nə alırsan al, bir manat" şüarı ilə fəaliyyət göstərən mağazalarda satılan məhsulların qiyməti heç də, deyildiyi kimi, 1 manat deyil, müxtəlifdir. Həmin dükanlar bu cür ucuz reklamlarla alıcı cəlb etmək istəyirlər. Ancaq həmin mağazalar istehlakçıların hüquqlarını pozmaqla məşğuldurlar.

*Günel CƏLİLOVA*

№ 199 (4097) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

8 NOYABR 2019-cu il

www.baki-xeber.com

## Süni intellekt insanları işindən məhrum edəcəkmi?

**Süni intellekt insanları işdən məhrum etməyəcək, ancaq yeni iş yerləri yaradacaq. Bunlar indiyəcən mövcud olmayan peşələrdir.**

İnsanların süni intellektdən qorxmasının səbəbi KİV-lərin yaydığı əfsanələrdir. Lakin robot və kompüterlərin insan əməyini əvəz etdiyi sahələrdə canlı kadrlar müəyyən qədər dəyərini itirə bilər. "Accenture"in tədqiqatı göstərir ki, süni intellektin şirkətin praktikasına tətbiqi əmək məhsuldarlığını və biznesin gəlirliliyini 40% artıra bilər. Bir sıra təkrarlanan işlər var ki, süni intellekt bunları öz öhdəsinə götürəcək və nəticədə bəzi peşələr yox olacaq. Lakin əvəzində yüksək texnologiyalarla bağlı yeni sənət sahələri yaranacaq. Texnoloji inqilab sadəcə tələb edir ki, texniki peşələrə yiyələnmiş şəxslər nəzəri biliklərini təkmilləşdirsin. Süni intellektin geniş yayıldığı dövrdə də hər kəsə uyğun iş olacaq. Məsələn, onu öyrətmək üçün çox sayda müxtəlif şəkil və ya mətn işarələməliyik. Demək olar ki, hər kəs bu işi görə bilər. Bunu tələbələr və təqaüdçülər də bacarar. Hələ 2017-ci ildə Gartner proqnozlaşdırırdı ki, 2020-ci iləcən süni intellekt bütün dünyada 1,8 milyon iş yerini avtomatlaşdıra biləcək. Bununla belə, şirkətlərin praktikasına süni intellektin tətbiq edilməsi insanlar üçün 2,3 milyon yeni iş yeri aça bilər. Dramaturq və ssenaristlər robotların insanlarla dialoqunu təkmilləşdirmək üçün yaradıcı metodlar tapacaq və tətbiq edəcəklər. Yalnız mətnlə işləməyi bacaran kreativ insan inqilab boyunca süni intellektin "lüğət ehtiyatını" müşayiət edə bilər. Süni intellekt beş günlük sıxıcı peşələri keçmişdə qoyaraq qarşımızda yeni üfüqlər açacaq. Empatiya üzrə mütəxəssisləri misal göstərmək olar. Artıq "Siri" və "Alexa" kimi söhbət proqramları insanların suallarına dərin anlayışla, hətta, yumorla cavab verə bilir. Bu suallar baqajın itməsi, keyfiyyətsiz malın alınması, məişət texnikasının xarab olması ilə də bağlı ola bilər. Maşınlara empatiyanı öyrətmək lazımdır, çünki, özü müstəqil şəkildə bunu mənimsəyə bilməz. İşlədikləri regionun və cəmiyyətin yerli xüsusiyyətlərini robotlara öyrətmək lazımdır. Alqoritmlərin tərcümə mütəxəssisi başqa bir perspektivli peşədir. Sistem səhv edirsə, belə bir mütəxəssis buna səbəb olan alqoritmi təyin etməli və lazımi düzəlişlər etməlidir. Süni intellekt sistemləri təhlükəsizliyi üzrə mütəxəssislər isə baş verə biləcək bütün mənfi halları təxmin edib bunun qarşısını alacaqlar. Davamlılıq mütəxəssisi insanlar və cəmiyyət üçün etik normalardan kənara çıxmadan süni intellekt sistemlərinin düzgün işləməsini təmin etmək üçün çalışacaq. "Genpact"ın araşdırması göstərib ki, texnoloji şirkətlərin top-menecerlərinin 88%-i belə hesab edir: Yaxın 3 ildə süni intellekt gündəlik həyatımıza daxil olacaq. Keçirilən sorğular göstərib ki, rəyi soruşulanların 41%-i süni intellektin onların gündəlik həyatlarının bəzi vacib cəhətlərini dəyişdirdiyini bildirib. 35%-i bu dəyişiklikləri müsbət qiymətləndirib. Yalnız 11% respondent süni intellektə qarşı mənfi köklənib.

### Elan

Ələkbərova Nüşabə Dursun qızının adına, Bakı şəhəri, Xətai rayonu, N.Rəfiyev küçəsi, ev 25A, 1171-ci məhəllə, 77 nömrəli mənzilə məxsus olan çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.

İsayeva Elnarə Rəfael qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, S.Rəhimov küçəsi, ev 69 ünvanının çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Xudiyev Xudayar Məmməd oğluna məxsus, №000900, 10 may 1997-ci il tarixli Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır (AZE №02043192, Xətai RPİ).

Babayev Elmar Sovet oğluna Daxili İşlər Nazirliyi tərəfindən verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İslamzadə Rasim Şahbala oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən 0.12 hektar torpaq, 294 a nömrəli bağ sahəsinin 16 mart 2005-ci il tarixli, 29231 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in "Mobil Göz Klinikası"nın yeni səfərləri

**Müasir texnologiyalar və effektiv həllərin tətbiqi vasitəsilə insan həyatını asanlaşdırmağı hədəfləyən "Azercell Telekom" MMC ödənişsiz göz müayinələrinin təşkilini davam etdirir.**

"Azercell"in "Mobil Göz Klinikası" oktyabr ayı ərzində Bakı şəhəri, 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin Həzi Aslanov və Nəsimi filiallarının şagirdlərini müayinədən keçirib. Klinikanın Sabunçu rayonu, Bakıxanov qəsəbəsinə təşkil edilən səfəri zamanı isə aztəminatlı ailələrdən olan uşaqlara və sağlamlıq imkanları məhdud körpələrə tibbi yardım göstərilib. Beləliklə, oktyabr ayı ərzində 100-ə yaxın uşaq klinikanın təşkil etdiyi müayinələrdən yararlanıb.

2011-ci il iyun ayının 1-də, Uşaqların Beynəlxalq Müdafiəsi Günündə fəaliyyətə başlayan "Azercell"in "Mobil Göz Klinikası" ən müasir tibbi avadanlıqla təchiz edilib. Valideyn himayəsindən məhrum uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan klinikanın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanırlar.

Qeyd edək ki, bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Bakcell"dən tamamilə yeni internet paketləri

**"Bakcell" şirkəti abunəçilərin tələb və istəkləri əsasında hazırlanmış tamamilə yeni internet paketlərini təqdim edib.**

Yeni paketlər sayəsində "Bakcell" ölkənin ən sürətli mobil şəbəkəsində ("Ookla" şirkətinin təsdiq etdiyi məlumata əsasən) maksimum rahatlıq təklif edir. Müştəriyönümlü və çox sadə məhsul olan yeni internet paketlərindən istifadə edən abunəçilər həm də nömrənin balansına daha yaxşı nəzarət edə biləcəklər. Belə ki, mobil internet nömrədə abunəçi yalnız internet paketi aldıqda aktiv olacaq. İnternet trafiki bitdikdən sonra abunəçiyə hər meqabayta görə daha yüksək qiymət ödəmək əvəzinə, xüsusi səhifə və ya SMS vasitəsilə münasib qiymətə yeni paket almaq və ya cari paketi yeniləmək təklif olunacaq.

Bu yeni məhsullar Azərbaycanda mobil internet istifadəsi üzrə maksimum şəffaflığı təmin edən böyük bir yenilikdir. Bundan sonra internet paketi almayan abunəçilər smartfon tətbiqetmələrinin arxa fonda baş verən yenilənmələri və ya təsadüfi internet bağlantısı nəticəsində yarana biləcək əlavə xərclərdən azad olacaqlar. Çünki mobil internet yalnız müvafiq internet paketini əldə etdikdən sonra aktivləşəcək.

Bu internet paketlərinin gətirdiyi təkmilləşdirilmiş müştəri təcrübəsi isə "Mənim Bakcellim" tətbiqetməsi sayəsində daha əlverişli olacaq. Belə ki, "Mənim Bakcellim" vasitəsilə abunəçi internetdən istifadəyə tam nəzarət edəcək, lazım olan paketləri əldə edə, yeniləyə və ya dəyişə biləcək, xərclənən məbləğ və aktiv paketin qalan hissəsi barədə şəffaf məlumat alacaq.

"Bakcell" şirkəti məhsul və xidmətlərinin keyfiyyətini daha da artırmaqla abunəçilərinə daha yaxşı müştəri təcrübəsi təqdim edəcək. Bunun üçün Azərbaycanın ən sürətli mobil şəbəkəsinin bütün texniki imkanları mövcuddur.

Yeni aylıq internet paketləri abunəçinin istəyindən asılı olaraq 50 MB, 500 MB, 1 GB, 2 GB, 5 GB və ya 10 GB həcmində təklif olunur. Daha ətraflı məlumatı https://www.bakcell.com/az/internet-for-smartphones səhifəsindən və ya "Mənim Bakcellim" mobil tətbiqetməsinin "İnternet paketləri" bölməsindən əldə etmək olar.





**Qoç** - Qəribə işdir: çaşqınlıq içərisindəsiniz və nə etmək lazım olduğunu bilmirsiniz. Bu vəziyyət sizin üçün diskomfort yaradır və çətin ki uzun surə. Ehtiyatlı hərəkət etməyə çalışın, lüzumsuz risklərdən uzaq durun.



**Buğa** - Sizi uğurun müşayiət edəcəyini demək olmaz. Amma ümumilikdə işləriniz bir o qədər də pis getməyəcək. Çətin işlərin öhdəsindən gələcək, faktları tutuşdura biləcək, başqalarının təsadüf hesab etdiyi hadisələr arasında əlaqə tapacaqsınız.



**Əkizlər** - Bu gün xüsusilə maraqlı heç nə baş verməyəcək. Amma vaxtınızı yaxşı keçirə biləcəksiniz. Fantaziyanız bitməz-tükənməzdir və xoş kampaniyada əylənməyin min bir yolunu tapmağa nail olacaqsınız.



**Xərçəng** - Bu gün diqqəti şəxsi işlərinizə yönəltmək kifayət qədər çətin olacaq: sizi tez-tez yayındıracaq və boş şeylərə görə təngə gətirəcəklər. Bir çox Qoçlar çoxdandır əməkdaşlıq etdikləri insanlarla küsüşəcəklər.



**Şir** - Çox əlverişli gündür. Gözlədiyinizdən də böyük uğurlar əldə edəcəksiniz. Yeni kəşflər, uğurlu eksperimentlər mümkündür. Yaradıcı yanaşma sizə bir çox problemlərin həllində yardım edəcək.



**Qız** - Uğursuzluqlar vaxtı gəldi. Bəzi işləriniz gətirməyəcək. Bürcün nümayəndələri çətin vəziyyətlərə düşəcək, aşılmaz çətinliklərlə qarşılaşacaqlar. Özü də köməyə heç kim tələsməyəcək.



**Tərəzi** - Birmənalı olmayan və dolaşıq vəziyyət yaranacaq. Ondan baş çıxarmaq gözlədiyinizdən də çətin olacaq. Ziddiyyətli məlumat alacaqsınız. Sizə faktları təhlil emək və düzgün nəticə çıxarmaq üçün vaxt lazımdır.



**Əqrəb** - Çox şey barədə düşünmək lazım gələcək. Problem və çətinliklər leysan kimi üstünüzə yağacaq. Düşünmək, ətrafa boylanmaq üçün vaxtınız olsa, onların hamısının öhdəsindən gələrsiniz.



**Oxatan** - Bu gün zövqünüzə uyğun olmayacaq, olduqca çoxlu çətinlik və birmənalı olmayan hadisələr gözlənilir. Eyham və üstüörtülü söhbətlərdən xoşunuz gəlməsə də, bu gün onlardan qaçmaq mümkün olmayacaq.



**Oğlaq** - Bu gün yaxşılığa doğru dəyişikliklərin əsasını qoyan hadisələrlə yadda qalacaq. Gələn təkliflər çaşdırmayacaq: siz onlara necə reaksiya verməyin lazım olduğunu yaxşı bilirsiniz.



**Dolça** - Diqqət cəmləşdirməyi tələb etməyən müşğuliyyətlər üçün pis gün deyil. Əgər iş masanızın üstündə kağızların yerini dəyişdirmək üçün bir neçə saat ayıra bilsəniz, məhz bununla məşğul olun.



**Balıqlar** - Sizi çətin, amma çox faydalı iş gözləyir. Bu işləri öz axarına buraxmaq olmaz - sizdən başqa heç kim lazım olan nəticəni əldə edə bilməyəcək. İşdə vəziyyət əlverişlidir, öz ideyalarınızı həyata keçirmək üçün rəhbərliyin dəstəyinə bel bağlaya bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Duru sabun istifadəsi dırnaqlara zərərdir

**Dermatologiya üzrə türkiyəli uzman Dr. Serpil Özyılmaz, dırnaq qırılmasının bir çox səbəbi olduğunu bildirib. Bu qırılmalar bəzən ciddi sağlıq probleminə işarə ola bilər.**

"Medicina.az" bildirir ki, dırnaq qırılmalarına ən çox vitamin və mineral əskikliyi səbəb olur. Başlıca olaraq, dəmir, kalsium,maqnezium, Avə D vitamin çarışmazlığı əsas götürülür. Həkimin sözlərinə görə, sağlam dırnaqlar çəhrayı rəngdə və möhkəm görünür. Qış aylarında dırnaqlar soyuq hava səbəbindən daha həssas vəziyyətə gələ bilir. Əsasən, bu aylarda əlləri yuduqdan sonra və açıq havaya çıxılan zaman nəmləndirici istifadə etmək , əlcək taxmaq lazımdır. Duru sabunlar da dırnaqların qırılmasına gətirib çıxarır. Əlləri yuyarkən ənənəvi sabunlardan istifadə etmək lazımdır. Duru sabun, nəm salfetka kimi təmizlik vasitələrinin tərkibindəki kimyəvi maddələr dərinin sağlığına zərər verdiyi üçün tövsiyə edilmir. Bundan əlavə, soyuq havalarda tez-tez əlləri yumaq dərinin sağlığını pozur. Əgər allergik bir xəstəliyiniz varsa, pambıq əlcək istifadə etməyə çalışın. Davamlı olaraq dırnaq boyası və aseton istifadəsi də dırnaqlar üçün ziyanlıdır.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.